YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 sentyabr 2023-cü il Çərşənbə № 162 (8298) Qiyməti 60 qəpik

Xəbər

Yaslarda ehsan qadağası yenidən gündəmdə

yazısı səh.3-də

RUSİYANIN HUMANİTAR YÜKÜ: LAÇIN YOLUNU AÇMAQ ÜÇÜN HİYLƏ, YOXSA...

Bakı separatçıların və havadarlarının müqavimətini qırdı; ekspertlərin fikirləri haçalanır



yazısı səh.9-da

"Azərbaycan Mehrini alacaq" iddiası sərhəd "revizor"larını qorxutdu

Ermənistan Azərbaycanın Mehrini güc yolu ilə ələ keçirəcəyi barədə yalandan hay-küy yaradıb; Aİ missiyası eskalasiya riskini əsas götürərək iki patrul xidmətini gücləndirir

yazısı səh.4-də

Gündəm

Avropa Parlamenti anti-Azərbaycan qətnamə hazırlığında



"Qubad İbadoğlunun işi" bu gün qurumda müzakirə ediləcək; deputatlardan sərt reaksiyalar

yazısı səh.10-da

Prezidentin Türk dövlətlərinin bayrağının sayını artırmaq mesajı
yazısı səh.8-də

Rəqabət Məcəlləsi parlamentə göndərildi
yazısı səh.11-də

Azərbaycanda neçə çoxuşaqlı ailə var?
yazısı səh.3-də

Vaşinqtonda yeni görüş hazırlığı
yazısı səh.4-də

Azərbaycan üzərindən Ermənistana işıq - Bakının təklifə cavabı...
yazısı səh.5-də

"TikTok"da ordu ilə bağlı yalan məlumat yayan saxlanıldı
yazısı səh.6-da

Ölkəmizdə həbs edilən İran casuslarının şəkilləri Kərbəla yolunda
yazısı səh.5-də

9 sentyabr separatizm sınağından çıxmayanlar - susanlar kimlər oldu?
yazısı səh.7-də

Zəngəzur danışıqlarının dayandığı rəsmən elan olundu
yazısı səh.12-də

Müəllimlərin məvacibi yaxşıdır, amma daha yaxşı olmalıdır
yazısı səh.14-də

"Nikosayağı" ev dustağı olacaq, yoxsa...
yazısı səh.2-də



Qriqori Trofimçuk

Rus politoloqdan " " işarəsinə heyrətamiz izah - İsraillə əlaqəsi varmı?

yazısı səh.6-da



Surət Hüseynovun məzardaşına bu sözlər yazıldı: "Düşmənlərim...

yazısı səh.3-də



Natiq Cəfərli

Rus pulunu ölkədən çıxartmaq məhdudiyyəti azərbaycanlılara zərbədir - ekspertin şərhi

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Rusiya sülhməramlılarının yeni komandanı Bakıda



"Ermənistan Qarabağın Azərbaycanın olduğunu tanıyıb" - Putin

Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb. Bunu Rusiya Prezidenti Vladimir Putin Vladivostokda keçirilən Şərq İqtisadiyyat Forumunun plenar iclasında bildirib.

"Ermənistan rəhbərliyi bunu Praqa bəyanatında, kağız üzərində də qeyd edib. Biz bu barədə bilirik. İndi mənə Azərbaycan Prezidenti İlham Əliyev deyir ki, Ermənistan Qarabağın bizim olduğunu tanıyıb, Qarabağın statusu məsələsi daha gündəmdə deyil, o həll olunub, Ermənistan rəhbərliyi bu barədə publik bəyan edib, 1991-ci il Azərbaycan SSR-in sərhədləri daxilində bütün əraziləri və rəqəmi açıqlayıb, hansı ki, bura Qarabağın ərazisi də daxildir. Bu baş verib və bu, bizim qərarımız deyil. Bu, bugünkü Ermənistan rəhbərliyinin qərarıdır. Əgər belədirsə, bizə deyirlər ki, əgər siz Qarabağla bağlı nə iləsə məşğul olmaq istəyirsinizsə, o zaman bizimlə ikitərəfli əsasda həll etməlisiniz. Onda biz nə deməliyik? Burada deməyə söz yoxdur. Əgər Ermənistan özü Qarabağın Azərbaycanın bir hissəsi olduğunu tanıyıbsa... Əlbəttə, burada başqa məsələlər yaranır. Humanitar tərkibli və bizim sülhməramlıların mandatı ilə bağlı məsələlər... Mandat hələ ki fəaliyyətdədir. Humanitar xarakterli məsələlər, hansısa etnik təmizləməyə imkan verilməməsi məsələləri heç yerə getməyib. Mən bununla tam razıyam. Azərbaycan rəhbərliyi hər zaman deyir ki, etnik təmizləmədə maraqlı deyil", - Rusiya Prezidenti əlavə edib.

"Qarabağ" MDB klublarının reytinqində birincidir

"Qarabağ" Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) açıqladığı dünya reytinqində MDB məkanı klublarının siyahısına başçılıq edir.

Dünyada 64-cü, Avropada isə 40-cı pillədə qərarlaşan Azərbaycan çempionu keçmiş SSRİ klubları arasında ən yaxşı göstəriciyə malikdir.

Qurban Qurbanovun yetirmələrinin hesabında 144,5 xal var. Ağdam təmsilçisini Ukrayna "Şaxtyor"u (Donetsk) izləyir. Adıçəkilən komanda dünya reytinqində 78-ci, Avropa sıralamasında isə 48-ci yerdədir. İlk "üçlüy"ü Ukraynanın digər təmsilçisi "Dnepr-1" (dünyada 105-ci, Avropada 65-ci) qapayır.

MDB məkanında Azərbaycanın reytinqdəki digər komandalarından "Sabah" 14-cü, "Neftçi" isə 16-cı pillədə yer alır.

Rüşvətə görə tutulan həkimin məhkəməsi başlayır

Rüşvətə görə tutulan "Sabunçu Tibb Mərkəzi" Publik Hüquqi Şəxsdə şöbə müdiri vəzifəsində işləyən İlqar Qaraca oğlu Qaracayevin cinayət dosyesi Bakı Ağır Cinayətlər Məhkəməsindən Bakı Hərbi Məhkəməsinə göndərilib. Musavat.com-a daxil olan məlumatda deyilir ki, çağırışçılardan rüşvət almaqda təqsirləndirilən İlqar Qaracayevin cinayət işi üzrə məhkəmə prosesi bu ilin avqustunda Bakı Ağır Cinayətlər Məhkəməsində başlasa da, işdə Hərbi Məhkəmənin yurisdiksiyasına adi məsələlər olduğuna görə cinayət dosyesi Bakı Hərbi Məhkəməsinə göndərilib.

Qeyd edək ki, İlqar Qaracayevin cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azad Məcidovun sədrliyi ilə araşdırılıb. Təqsirləndirilən məhkəmənin hazırlıq iclasında dövlət tərəfindən təyin olunan vəkildən imtina etmişdi. Bildirmişdi ki, yeni vəkillə müqavilə bağlayıb. İttiham görə, Sabunçu Tibb Mərkəzi" Publik Hüquqi Şəxsdə şöbə müdiri vəzifəsində işləyən İlqar Qaracayevin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işinin istintaqı aparılıb. İlqar Qaracayevin qeyd olunan vəzifədə işləyərkən hərbi xidmətə yararlı olan ayrı-ayrı çağırışçıların hərbi xidmətə yararsız hesab edilmələri barədə saxta tibbi rəylərin verilməsi müqabilində onlardan 18 min manatdan artıq məbləğində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. İş üzrə toplanmış ilkin sübutlar əsasında İlqar Qaracayevə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən istifadə etmə), 311.3.2 (təkrar rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilərək səhhəti və yaşı nəzərə alınmaqla barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı növündə qətimkan tədbiri seçilib.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"



Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə naziri qonaqları salamlayaraq, Azərbaycanla Rusiya arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimada əsaslandığını qeyd edib.

Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

Öz növbəsində Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı O.Salyukov səmimi qəbula görə təşəkkürünü bildirib, ikitərəfli əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edib.



Yeni kovidin əlamətləri açıqlandı

Hazırda kovidin geniş yayılan yeni variantının omikronla oxşar əlamətləri açıqlanıb. "Medicina".az xəbər verir ki, britaniyalı həkim 1 ay ərzində 100 min insanı yoluxduran Erisin - EG 5.1 variantının ən çox müşahidə edilən əlamətlərini deyib.

Yeni kovid omikron kimi ağciyər yox, yuxarı tənəffüs yollarını zəbt edir.

Və xəstəlik boğaz ağrısı ilə başlayır.

*Boğaz ağrısı
*Burun axması
*Asqırmaq
*Burun tıxanması
*və daha sonra öskürək ilk 3 gündə artan sürətlə davam edir.

Salyanda küçədə yeni doğulmuş körpə tapıldı

Sentyabrın 12-də səhər saatlarında Salyan rayonunun Qarabağlı kəndi ərazisində küçədən yeni doğulmuş qız uşağı tapılıb.

Bu barədə sosial şəbəkədə məlumat yayılıb.

Bildirilir ki, yoldan tapılan körpə xəstəxanaya təhvil verilib.

"Nikosayağı" ev dustağı olacaq, yoxsa...



Avqustun 15-də qəzaya düşən, sosial şəbəkələrdə "Nikosayağı" adı ilə tanınan bloger Nicat Şakirli barəsində cinayət işi başlanılıb.


Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin əməkdaşı, polis mayoru Anar Qafarov Oxu.az-a açıqlamasında istintaq tədbirlərinin davam etdiyini vurğulayıb: "Qeyd edilən yol-nəqliyyat hadisəsi ilə bağlı Nizami Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Hazırda istintaq tədbirləri davam etdirilir".

Xatırladaq ki, sosial şəbəkələrdə "Nikosayağı" adı ilə tanınan bloger Nicat Şakirli avqustun 15-də Bakıda qəzaya düşüb. Hadisə Heydər Əliyev prospektində qeydə alınıb. Nicat Şakirli idarə etdiyi "Porsche" markalı avtomobili ilə TIR-a çırpılıb. Qəza nəticəsində bir nəfər ölüb, ağır bədən xəsarətləri alan bloger isə xəstəxanaya aparılıb. Nicat Şakirli sentyabrın 10-da xəstəxanadan evə buraxılıb. Qanun nə deyir? Ölən tərəf şikayətçi olmasa da, ortada ölüm faktı var. Üstəlik, orada bir DYP işçisi də yaralanmışdı.

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov "Yeni Müsavat"a deyib ki, əgər şəxsin sürücülük vəsiqəsi olubsa, qəza zamanı sükan arxasında spirtli içkilərin, psixotrop maddələrin təsiri altında olmayıbsa, bu halda əməli az ağır cinayətlər kateqoriyasına aid edilir: "Bu halda əməl Cinayət Məcəlləsinin 263.2-ci maddəsinə tövsif olunur və 3 ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 2 ildən 6 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Əgər şəxsin sürücülük vəsiqəsi yoxdursa, qəza zamanı sükan arxasında spirtli içkilərin, psixotrop maddələrin təsiri altında olubsa, bu halda əməl Cinayət Məcəlləsinin 263-1.2-ci maddə ilə tövsif olunur. Bir də ağırlaşdıran hal kimi qəza zamanı sükan arxasında olan sürücünün şəxsiyyəti nəzərə alına bilər. Sürücü qəzadan əvvəlki dövrdə dəfələrlə sürət həddini aşmağa görə cərimə edilibsə, bu məsələnin qəza işində nəzərə alınmaya bilər. Çünki sürücü sürət həddini aşıbsa, həmin əmələ görə cərimə də ödəyib. Bu halda isə sürücü 5 ilədək müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə, 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"



İsa Qəmbərin şikayəti təmin olunmayıb

Ali Məhkəmə pensiya çəkişməsi aparan siyasətçi İsa Qəmbərin şikayətini təmin etməyib. Vəkil Nemət Kərimli Novator.az-a deyib ki, işə yazılı icraat qaydasında, məhkəmə iclası keçirilmədən və tərəflərin iştirakı olmadan baxılıb.

1992-2014-cü illərdə Müsavatın başqanı postunu tutan İsa Qəmbər hazırda partiya Məclisinin üzvü, Milli Strateji Düşüncə Mərkəzinin sədridir.

2022-ci il fevralın 24-də pensiya yaşına - 65 yaşa çatan İsa Qəmbərə mayın 11-də yaşa görə 180 manat müavinət kəsilib (hazırda müavinətin məbləği 220 manatdır). Dövlət Sosial Müdafiə Fondu bəyan edib ki, qanun pensiya hüququ üçün ya 25 il sığorta stajı, ya da minimum pensiya kapitalı (2022-ci ildə 34560 manat idi, hazırda 40320 manatdır) şərti qoyur, İsa Qəmbərin sənədləri bu şərtlərə uyğun gəlməyib.

2022-ci il sentyabrın 12-də Bakı İnzibati Məhkəməsi İ.Qəmbərin iddiasını təmin etməyib, 2023-cü il mayın 10-da Bakı Apelyasiya Məhkəməsi həmin qərarı qüvvədə saxlayıb.

Şəhid ailələri və müharibə əlillərinə yeni mənzillər verildi

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 mənzil verib.

Mənzillər Bakının Hövsan qəsəbəsindəki yeni yaşayış kompleksindən təqdim olunub.

Tədbirdə qeyd olunub ki, bu il artıq 650, postmüharibə dövründə 5 150, ümumilikdə ötən dövrdə 13 950 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Yaslarda ehsan qadağası yenidən gündəmdə

Dinşünas ekspert: "Problemin həlli üçün işlərin çoxu QMİ-nin üzərinə düşür, bunu vətəndaşların öz öhdəsinə buraxmaq heç bir ciddi nəticə verməyəcək"

Naxçıvanın Mahmudkənd icması kənddə yas mərasimlərinin ləğv edilməsi ilə bağlı qərar qəbul edib.

Bu barədə kəndin sosial media hesabında paylaşım edilib. Azərbaycanda yas mərasimlərində həddən artıq israfçılığa yol verilən ehsan süfrələrinin ləğvi istiqamətində uzun zamandır müzakirələr davam edir. Əksəriyyət bu cür adətləri pisləsə də, bəzi bölgələrdə ehsan süfrələri indi də açılır.

Yada salaq ki, 2014-cü ilin avqust ayında Azərbaycan hökuməti yas mərasimlərində həddən artıq israfçılıqla müşayiət olunan ehsan süfrələrini ləğv etməyə qərar verdi. Bununla bağlı xeyli təbliğat işləri aparıldı, hətta bəzi yerlərdə inzibati qaydada qadağalar tətbiq edildi. Bəzi bölgələrdə bütün bu proseslər öz nəticəsini verdi. Bakının bəzi kəndlərində isə ağsaqqallar ehsan süfrələrində israfa yol verməmək üçün müxtəlif qaydalar tətbiq etdilər. Ehsan olaraq yemək verilməsi yerinə, kəndin imkansız, sağlamlığı yerində olmayan sakinlərinə kömək etmək kimi qaydalar tətbiq olunurdu. Son zamanlar məlumatlar yayılıb ki, yenidən ləğv edilən bölgələrdə ehsanlar verilməyə başlayıb. Ehsan verənlər hesab edirlər ki, bu adətdir və davam etdirilməlidir. Niyə bu qadağalar işləmədi, insanların etirazına səbəblər nədir?

İlahiyyatçı Rəsul Mirhəşimli "Yeni Müsavat"a bildirdi ki, dünyadan köçən insanın yuyulmasından tutmuş, dəfn mərasimi və sonra davam edən məclislər insanları iqtisadi sıxıntılara salır: "2007-ci ildə İrana səfərim zamanı bu ölkədə yas mərasimlərinin forması ilə maraqlanmışdım. Qəbir yerləri ilə bağlı məsələ demək olar ki, Türkiyədəki kimidir, yəni pulsuz. İranda yas mərasimləri məsciddə keçirilir. Bu mərasimlərin keçirilməsi üçün müvafiq vaxt təxminən zöhr namazından sonraya salınır və axşam namazına qədər davam edə bilər, qonaqlara çay və xurma verilir. Bir qədər imkanlı adamlar məscidin qapısı ağzında qablarda qoz da qoyurlar. Amma bu hal israfçılıq kimi tənqid olunur. Səudiyyə Ərəbistanında meyit qəbiristanlıqda dəfn olunduqdan sonra mərhumun yaxınlarına oradaca başsağlığı verilir və dağılışırlar. Sonradan mərhuma görə məclislər qurulmur. Heç bir müsəlman ölkəsində Azərbaycanda olan yas mərasimləri və bu mərasimlərlə bağlı israfçılıq yoxdur".

O ki qaldı ehsanlara, ilahiyyatçı bildirdi ki, ehsan sözü ərəbcədən gəlmə söz olaraq, gözəllik və yaxşılıq mənasını verir, bu ad altında mal və pul israfı hər cür gözəllik və yaxşılıqlardan kənardır: "Qəbir yerləri ilə birtəhər problemi həll edən vətəndaş ehsan süfrəsi adı ilə məişətimizə daxil olan növbəti israfçılıqla qarşılaşır. Yuxarıda müsəlman ölkələrindəki bu qaydalarla tanış olmuşduq. Azərbaycanda isə bu məsələ xüsusilə acınacaqlıdır. Naxçıvanda inzibati metodlarla bu məsələnin qarşısı qismən alınıb. Məncə, məsələnin həlli inzibati metodlarla deyil, təbliğatla olsa, daha yaxşı olar. Vətəndaşlara ən çox ziyan vuran tərəfi də məhz bu cür ehsan süfrələridir. Bu problemin həllini vətəndaşların öz öhdəsinə buraxmaq heç bir ciddi nəticə verməyəcək. Problemin həlli üçün işlərin çoxu QMİ-nin üzərinə düşür. Necə ki, Ramazan ayları üçün bu mərasim zallarında iftara qədər ehsan süfrələri açılmaq qadağan olunur və buna bir ay müddətində sərt şəkildə əməl olunurdusa, onda yas mərasimləri üçün təkcə çay süfrələri açılmaqla bağlı qərar olmalıdır. Bu işi vətəndaşın öz istəyinin öhdəsinə buraxmaqla, onların israfçılıq və ən ağır xərclərlə üz-üzə qalmasına şərait yaradılıb. Ümumiyyətlə, İslam dinində israf Allahın Quranda qadağan etdiyi çirkin bir davranışdır. Lakin Quran əxlaqından uzaq yaşayan bir çox insan üçün sərhəd tanımaz şəkildə mal-pul xərcləyib, sonra bununla öyünmək üzdə bir prestij mənbəyidir. Bu insanların mahiyyəti Quranda bu şəkildə bildirilmişdir. "O deyir: "Mən çoxlu var-dövlət sərf etmişəm! Məgər o, heç kəsin onu görmədiyini güman edir?!" (Bələd surəsi, ayə 6-7) Allah-Təala insana bu dünyada istifadə etmək üçün bütün nemətləri bəxş edib. Bu nemətlərdən faydalanmaq üçün də bütün yolları hikmətlə göstərib. Lakin bircə bunu tövsiyə edib bizlərə Uca Rəbbimiz: "Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevmir" (Əraf surəsi, ayə 31). Ayədən göründüyü kimi, Allah-Təala israf edən insanları sevmir. Yas mərasimlərində "ehsan edirik" deyə savab əmələ cəhd edirmiş kimi bir hərəkət sərgiləyən insan özü də biləkdən və ya bilmərəyəkdən Allahın sevmədiyi əməli ortaya qoymuş olur.



Başqa bir ayədə israf barədə hökm daha sərt şəkildə bəyan edilir: "Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!" (İsra surəsi, ayə 27). Allah-Təala israfçılıq edən bəndəni şeytana qardaş olmaq kimi təqdim edir. Ayədən göründüyü kimi, savab əməllər edib, dünyadan köçən insanın ruhuna dualar qazanmaq istəyi əslində bəyənilməyən bir əməl kimi hesab dəftərinə düşür. Bir neçə il əvvəl anası dünyadan köçmüş bir nəfər ehsan edəcəyi malını qonaqlara yemək-içmək şəklində sərf etməkdən vaz keçmiş, bir məclisdə istifadə olunan qədər yemək bişirtdirib və bunu kimsəsiz uşaqların tərbiyə aldığı müəssisəyə hədiyyə etmişdi. Bütün savab və yaxşılıqları ilə bundan gözəl ehsan ola bilməz".

R.Mirhəşimlinin fikrincə, yas mərasimlərində israfın qarşısını almaq üçün ilk növbədə ehsan süfrələrinin mahiyyəti sadələşməlidir: "Bu süfrələri çay verməyə qədər məhdudlaşdırmaq olar. Qəbiristanlıqlarda məzar daşlarının bu şəkildə təmtəraqlı olması yaxın gələcəkdə Bakı şəhərində qəbir yerlərinin çatışmaması kimi ciddi problemin yaranmasına səbəb olacaq. Bunun yaranmaması üçün bizə yaxın olan Türkiyə modelindən istifadə etmək mümkündür. Kiçik bir məzar daşı, üzərində mərhumun adı, olum və ölüm tarixi, eləcə də "ruhuna fatihə" kimi kiçik bir yazı ilə Türkiyədə qəbir yerləri diqqəti cəlb edir. Bu modeli ölkədə tətbiq etməklə yersiz israfdan da uzaqlaşmış olarıq. Əks halda, qəbiristanlıqlar bir məzarın ətrafında geniş hasarlarla getdikcə daralır. Bu işin daha tez və keyfiyyətli həlli üçün bütün səviyyələrdə maarifləndirici işlər aparılmalıdır. Yoxsa bu dünyada israf etdiyimizə görə günahın cəzasını çəkmək kimi sıxıntılara düçar olacağıq".

Millət vəkili Aqil Abbas isə şərhində bildirdi ki, yas mərasimlərini ancaq maarifçilik yolu ilə tənzimləmək olar. O hesab edir ki, belə həssas məsələlərdə qadağaların tətbiq olunması doğru deyil: "Naxçıvanda 10 il bundan öncə də yas mərasimlərində çay verilib. Bu məsələlərlə bağlı qadağa, əmr verəndə pis nəticə verə bilər. İnsanlar ehsan üçün daha çox xərc çəkməyə başlayacaq. Son zamanlar elə də israfçılıq nəzərə çarpmır, mərasimlərin sayı azalıb. Kimin pulu varsa, ehsan verir, kimin pulu yoxdursa, heç kimdən borc almır. Rüşvət alma, adam öldürmə qadağandır, amma bu kimi halların qarşısı alınmır".

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"



Surət Hüseynovun məzardaşına bu sözlər yazıldı: "Düşmənlərim..."

Türkiyədə vəfat edən sabiq baş nazir Surət Hüseynova məzardaşı qoyulub. Bununla bağlı Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı foto paylaşıb. Fotodan görünür ki, S.Hüseynovun məzardaşının üzərinə onun Azərbaycanın Milli Qəhrəmanı olması yazılıb.

Həmçinin başdaşına epiqraf kimi bu sözlər yazılıb: "Vətənimi, dövlətimi, millətimi, xalqımı çox sevdiyim üçün sevənlərim də, məni qısqanan düşmənlərim də çox oldu!"

Qeyd edək ki, Surət Hüseynov bu il avqustun 1-də İstanbulda müalicə olunduğu xəstəxanada vəfat edib. O, Gəncə şəhərindəki 4 saylı qəbiristanlıqda, valideynlərinin məzarı yanında torpağa tapşırılıb.

Qeyd edək ki, S.Hüseynov 1994-cü ildə Milli Qəhrəman adından məhrum edilib.



Azərbaycanda neçə çoxuşaqlı ailə var?

Azərbaycanda 6 və daha çox uşağı olan ailələr hazırda çoxuşaqlı ailələr hesab olunur. Prezident İlham Əliyevin 13 yanvar 2023-cü il tarixli fərmanı ilə 5-dən çox uşağı olan qadınlara sosial müavinətin məbləği müəyyən edilib. Fərmanda bildirilir:

"Beşdən çox uşağı olan qadınlara sosial müavinətin aylıq məbləği hər uşaq üçün 105 (yüz beş) manat müəyyən edilsin".

Bu o deməkdir ki, hazırda ailədə 18 yaşına çatmamış 6 uşaq varsa, həmin ailəyə aylıq 630 manat (hər uşaq üçün 105 manat) müavinət ödənilir.

Maraqlıdır, bəs hazırda Azərbaycanda 5-dən çox uşağı olan ailələrin sayı nə qədərdir?

Modern.az saytının Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumata görə, 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən, Azərbaycanda 6 və daha çox uşağı olan 16169 ailə mövcuddur.

Çoxuşaqlı ailələrdən 7169-u şəhər yerlərində, 9000-i isə kənd yerlərində yaşayır. Hazırda Azərbaycandakı çoxuşalı ailələr uşaqların sayına görə aşağıdakı rəqəmlərdə əks olunur:

6 uşaqlı - 9332 ailə
7 uşaqlı - 3565 ailə
8 uşaqlı - 1748 ailə
9 və çox uşaqlı - 1524 ailə

Xatırladaq ki, hazırda Bərdənin Cəyirli kəndində yaşayan İsgəndərovlar Azərbaycanda ən çox uşağı olan ailə hesab olunur.

Ailənin 17 övladı var. İsgəndərovlar ailəsində ən böyük övlad Yunisin 25 yaşı var, ən kiçik uşaq İnci isə 1 yaş yarımlıqdır.

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

"Azərbaycan Mehrini alacaq" iddiası sərhəd "revizor"larını qorxutdu

Ermənistan Azərbaycanın Mehrini güc yolu ilə ələ keçirəcəyi barədə yalandan hay-küy yaradıb; Aİ-nin Ermənistandakı missiyası eskalasiya riskini əsas götürərək iki patrul xidmətini gücləndirir



Avropa İttifaqının (Aİ) Ermənistandakı Monitorinq Missiyası Azərbaycan-Ermənistan sərhədində patrul fəaliyyətini artırıb. "Yeni Müsavat" yada salır ki, bu barədə missiyanın "X" (Tvitter) sosial şəbəkə hesabında qeyd edilib. "Aİ Monitorinq Missiyası hərbi vəziyyətdə hər hansı dəyişikliyi müşahidə etmək üçün Ermənistanın Qeqarkunik və Sünik (Zəngəzur - E.S.) vilayətlərinin Azərbaycanla sərhəd ərazilərində patrul fəaliyyətini artırıb.

Biz regionda mövcudluğumuz vasitəsilə gərginliyin aradan qaldırılmasına və vəziyyətlə bağlı Aİ-ni qərəzsiz hesabatına töhfə verməyi hədəfləyirik", - deyə paylaşımda bildirilib. Xatırladaq ki, bu il 21 fevral tarixində Avropa İttifaqının (Aİ) Ermənistana göndərdiyi mülki missiya (EUMA) fəaliyyətə başlayıb. Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) mülki planlama və davranış (CPCC) üzrə idarəedici direktoru Stefano Tomat əməliyyatın mülki komandanlığı vəzifəsini yerinə yetirəcək, missiyaya rəhbərliyi isə Markus Ritter edəcək. Missiyanın ilkin mandatı iki ili əhatə edir.

Ekspertlər hesab edir ki, son günlər Ermənistan rəsmiləri Azərbaycanın müharibəyə hazırlaşdığı, guya hətta Mehri rayonunu güc yolu ilə ələ keçirəcəyi barədə yalan hay-küyü yaradıb. Aİ-nin Ermənistandakı Monitorinq Missiyası da eskalasiya riskini əsas götürərək Ermənistanın iki vilayətində patrul xidmətini gücləndirir. Guya ki, yaranan eskalasiya zamanı bunlar toqquşmaları qeydə alıb hesabat hazırlayacaqlar. "Əslində isə Avroittifaqın məqsədi Monitorinq Missiyası adı altında Ermənistanda fəaliyyət sferasını genişləndirmək, müşahidəçilərin sayını artırmaqdır. Çünki Rusiya-Ermənistan münasibətlərinin gərginləşməsi fonunda, Aİ-nin bu yöndə aktivliyini artırması təsadüfi deyil. Bütün bunlar arasında heç şübhəsiz ki, bu və ya digər dərəcədə əlaqə var", - deyə, ekspert Ramil Hüseynov deyib. Ümumiyyətlə, İrəvan israrla iddia edir ki, Azərbaycan sərhədə qoşun cəmləyir və guya onun sveren ərazilərinə hücum edə bilər. Baş nazir Nikol Paşinyan ictimai televiziyaya müsahibəsində Ermənistanın sərhədə qoşun yığmasını Azərbaycanın belə bir addım atması ilə əlaqələndirib. Amma burada əsas hiylə KTMT-nin guya öz missiyasını yerinə yetirməmək görüntüsü yaratmaqdır. Bu minvalla "rus NATO"sundan uzaqlaşma və Aİ-nin müşahidə missiyasının regionda fəaliyyət sferasını genişləndirmək məqsədi güdülür. Maraqlıdır, Aİ-nin Monitorinq Missiyasının fəaliyyətinin gücləndirilməsində məqsəd nədir? Azərbaycanın Mehrini hərbi yolla ələ keçirilməsi yalanı niyə tirajlanır? Sərhəddə toqquşmanı bəhanə edərək, Azərbaycan Ermənistan ərazilərinə "hücum edib" ittihamı ilə Fransa BMT Təhlükəsizlik Şurasında iclas çağıra bilərmi?

AzTV-nin İctimai-siyasi proqramlar studiyasının direktoru, politoloq Tofiq Abbasov "Yeni Müsavat"a qeyd etdi ki, Paşinyanın yalançı olması yenilik deyil: "Onun siyasəti qərbyönümlüdür. Erməni hərbçilər amerikalı xüsusi təyinatlarla birgə təlimlərə başlayıb. Faktiki olaraq, Paşinyan zorla Qərbi regiona gətirir. Özü də KTMT üzvü ola-ola...

Plan budur ki, Qərb Cənubi Qafqaza gəlsin. Bu, tək Rusiyanın deyil, İran və Türkiyənin də narahatlığıdır. Çünki Qara dənizdə iki donanma var idi - rusların və türklərin. Amerikalılar Qara dənizə soxulmaq istəyəndə türklər dedi ki, NATO ölkəsi kimi biz burada varıq. İndi Qərbi Qafqaza yenidən gətirmək istəyirlər. Xatırlayırsınızsa, Prezident İlham Əliyev 3+3 formatı ideyasını irəli sürəndə ABŞ etiraz etdi. Pentaqon rəhbəri Lloyd Ostin Gürcüstanda olarkən bu təşəbbüsün əleyhinə çıxdı. Vaşinqton hesab edirdi ki, onların rəqibləri bölgədəki marşrutlardan istifadə edəcək. Yəni bütün komponentlər üzrə biz görürük ki, ABŞ-ın Qafqaza gəlməsi məqsədlidir: regionda hərc-məclik, müharibə olsun, nəticədə Orta dəhliz sıradan çıxsın. Qərbi də bölgəyə gətirən həmin bu Paşinyandır. Ona görə Azərbaycanı qaralayır, sərhəddə guya hücum edəcəyimiz haqda əsassız fikirlər səsləndirilir".

T.Abbasov artıq kollektiv Qərb anlayışı olmadığını vurğuladı: "Amerika və Avropanın bu məsələlərə fərqli mövqeyi var. Ancaq yavaş-yavaş Amerika silahlı qüvvələri bura yerləşdiriləcək. Vaxtilə Saakaşvilinin etdiklərini dolayısı ilə Paşinyan edir. Amerika dünyanı maraq zonası elan edib, bir Qafqaz qalmışdı, bura da soxulacaqlar. Bu mənada Rusiya ilə ABŞ-ın yeni toqquşma bölgəsi Qafqazdır. Ancaq tək Rusiya yox, İran və Türkiyə də regiondadır. Yəni real vəziyyətdə Paşinyanın hansı "dəyirmana su tökdüyü" görünür. Ona görə də sərhəddə eskalasiya riski artır. Uzaq Hindistanın silah göndərməsinin səbəbi nədir? Bu məsələdə dəstək verən Paris də Amerikanın itidir. Ona görə belə gərgin şəraitdə müharibə baş verməsi istisna deyil. Nəticə etibarı ilə Qafqaz sabit şəraitdən qeyri-stabil yerə çevrilə bilər ki, bununla da Orta dəhliz baş tutmasın. Belədə Çinin, Rusiyanın, Türkiyənin cibindən gedəcək".

"World Panorama" strateji araşdırmalar mərkəzinin rəhbəri Ramiyə Məmmədova erməni tərəfdən tez-tez "Bakı İrəvana qədər gələcək", "Bir də görəcəyik ki, Əliyev İrəvanda çay içir", "Azərbaycanın hədəfi Zəngəzuru da götürməkdir" kimi iddialar səsləndiyini xatırlatdı. Onun sözlərinə görə, Ermənistanla şərti sərhəddə hərbi toqquşmalar baş verərsə, Azərbaycanın guya onların ərazilərinə hücum etməsi rəyi formalaşdırmağa cəhd ediləcək: "Məqsəd Zəngəzur koridorunun açılmasını gecikdirmək, Azərbaycanı aqressor kimi qələmə vermək, regionda qarışıqlığa nail olaraq sülh prosesini uzatmaq, həmçinin "KTMT bizə yenə kömək etmədi" bəhanəsi ilə Rusiyanın orbitindən bir qədər də uzaqlaşmaqdır. Avropalı müşahidəçilər, fransız jandarması, alman polisi, kanadalı atlı polislər, amerikalı hərbçilər... Bunlar hamısı Ermənistan ərazisindədir. Vaşinqtonun ikinci ən böyük diplomatik korpusu İrəvana yerləşib, Paşinyan hakimiyyəti ən yüksək səviyyədə qorunur, yəni bütün sadalanan faktlar təsadüfidirmi? Rusiya hələ ki təmkinli davranır. Ancaq Ermənistan sürətlə rusun ağuşundan alınıb Qərbin qucağına atılmaqdadır. Bu strategiya proqramlaşdırılıb və tək Paşinyan komandasının ağlının məhsulu deyil. Biz hadisələrə bəsit yanaşa bilmərik. Postmünaqişə dövründə Ermənistan xeyli dərəcədə dəstək əldə etməyə, hərbi və iqtisadi cəhətdən dirçəlməyə çalışıb, regionda beynəlxalq oyunçuları cəlb edib, nəticə etibarı ilə Cənubi Qafqaz yeni strateji qarşıdurma meydanına çevrilib. Sadəcə, proksi müharibə aparan Şərq-Qərbdir, yəni ABŞ və Rusiyadır, burun-buruna gələn isə Ermənistanla Azərbaycandır. Lakin Ukraynadan sonra ikinci cəbhənin Cənubi Qafqazda açılmasına imkan verməməliyik. Belə bir təhlükəli gedişatı müşahidə edirik, amma bundan yayınmaq yolları da var. Ərdoğanın Paşinyanla telefon danışığı, Blinkenin çağırışı, Mişelin reaksiyası sərhəddəki gərginliyi qismən azalda bilər. Ancaq avropalıların patrul xidmətlərini genişləndirməsi yalnız bizimlə bağlı deyil, bunu Ermənistan sərhədlərini qoruyan rus hərbçilərinə kontur addım kimi qiymətləndirmək lazımdır".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Vaşinqtonda yeni görüş hazırlığı

ABŞ bölgədə müharibə əlamətləri görmür və ermənilərin acından öldüyünü eşitməyib

"ABŞ Azərbaycanla Ermənistan arasında sülh prosesini dəstəkləməkdə davam edir". "Turan" xəbər verir ki, Dövlət Departamentinin iki yüksək vəzifəli rəsmisi xatırladıblar ki, bir neçə ildir ki, Bayden administrasiyası ədalətli, möhkəm və davamlı sülh həll yolu tapmağa çalışır. "Tərəflər dialoqu davam etdirmək üçün Vaşinqtona qayıtmağa hazırdırlar", - mənbə qeyd edib.

Onların sözlərinə görə, son bir neçə gündə ABŞ "bütün səviyyələrdə" danışıqlar aparıb: ötən həftə sonu dövlət katibi Entoni Blinken həm prezident İlham Əliyevlə, həm də baş nazir Nikol Paşinyanla danışıb. Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kim ötən həftə iki dəfə Azərbaycanın xarici işlər naziri Bayramovla söhbət edib. "Və bu yalnız həftə sonu idi... Bu, çox mürəkkəb məsələlər kompleksi üzrə irəliyə doğru yol tapmağa yönəlmiş davamlı, intensiv səylər idi", - məmur deyib və əlavə edib ki, ABŞ-ın Qafqazda danışıqlar üzrə baş məsləhətçisi Luis Bono hər gün bütün tərəflərlə əlaqə yaradır.

Vaşinqton "ardıcıl olaraq" "Laçın dəhlizi"nin kommersiya, humanitar və özəl hərəkətə açılmasına çağırıb. "Biz bunu açıq şəkildə bildirmişik. Biz həmçinin yüklərin çatdırılması üçün digər dəhlizlərin və marşrutlarının açılmasına tərəfdarıq".

Bakının mövqeyi ondan ibarət idi ki, əgər Ağdam yolundan istifadə olunarsa, Laçını yenidən açacaqlar. "Biz belə bir sövdələşmənin və ya onun şərtlərinin necə olacağı ilə bağlı heç bir göstəriş vermirik, lakin istənilən sövdələşməni asanlaşdırmaq üçün əlimizdən gələni edirik, çünki əsas məqsədimiz humanitar yardımın alınmasıdır", - məmur deyib.

"Razılaşma olmadığı təqdirdə yaxın günlərdə zorakılıq baş verə bilərmi" sualına məmur cavab verib ki, "biz heç bir əlamət görmədik və eşitmədik".

Dağlıq Qarabağda mövcud humanitar vəziyyətə gəlincə, "ABŞ-da aclıqdan və ya yetərincə qidalanmamaqdan ölüm halları barədə məlumat yoxdur".

Məmurlar həmçinin ermənilərə qarşı guya soyqırım törədilməsi barədə bəyanatlara reaksiya verərək bunu təsdiq edə bilməyəcəklərinə işarə ediblər.

ABŞ da hesab edir ki, məsələ Qərbdə və Rusiyada deyil. "Rusiyanın bu regionda tarixi var. Biz Rusiyanı sıxışdırmağa çalışmırıq", - məmur bu prosesdə Moskvanın rolu ilə bağlı "Turan"ın sualının cavabında belə deyib."Hər iki tərəf əzmlidir. Onlar əvvəlki kimi bu prosesi sona çatdırmağa sadiqdirlər. Sülhə nail olmaq üçün siyasi iradə var", - Dövlət Departamentinin nümayəndəsi fikrini yekunlaşdırıb.



YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Azərbaycan üzərindən Ermənistana işıq - Bakının təklifə cavabı...

Rusiya Azərbaycandan keçməklə Ermənistana, oradan isə İran və digər ölkələrə elektrik enerjisi çatdırmağı nəzərdə tutur; ABŞ vaxtilə bu layihəyə qarşı çıxmışdı

Rusiya Azərbaycan üzərindən Ermənistana, oradan isə İran və digər ölkələrə 300 MVt elektrik enerjisi çatdırmaq imkanını nəzərdən keçirir. "Yeni Müsavat" yazır ki, bunu Rusiyanın energetika naziri Nikolay Şulqinov bildirib. O qeyd edib ki, layihədə bütün iştirakçıların marağı var.

Bundan əvvəl İranın energetika naziri Əli Əkbər Mehrabian da İranın Azərbaycan ərazisi vasitəsilə Rusiya ilə elektrik enerjisi mübadiləsinə başlayacağını bildirib. O, elektrik şəbəkələrinin bir mərhələdə sinxronlaşdırıldığını əlavə edib.

Xatırladaq ki, İran, Azərbaycan və Rusiya arasında Şimal-Cənub enerji dəhlizinin yaradılması layihəsi üzərində işlər aparılır. Məqsəd üç ölkənin elektrik şəbəkələrinin sinxron edilməsidir. İran hesab edir ki, Azərbaycandan Rusiyaya elektrik mübadiləsi aparmaq daha sadədir. Azərbaycan, İran və Rusiyanın enerji sistemlərinin birləşdirilməsi üzrə Texniki-İqtisadi Əsaslandırma (TİƏ) ilin sonuna qədər hazır olmalıdır. Tərəflər razılaşıblar ki, Azərbaycan, İran və Rusiyanın enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Texniki-İqtisadi Əsaslandırmanın yekunlaşdırılması 2023-cü ilin sonunadək başa çatdırılmalıdır. İştirakçı ölkələrin elektrik şəbəkələri ilə elektrik enerjisinin ötürülməsi üçün müxtəlif şərtlər ətraflı təhlil edilir, əlavə enerji obyektlərinin tikintisinin məqsədəuyğunluğu da nəzərdən keçirilir.



Azərbaycan tranzit ölkə kimi elektrik enerjisinin ötürülməsi əməliyyatlarından dividentlər əldə edəcək. Yaxud salaq ki, bu əməkdaşlıqla bağlı məsələ ortaya çıxanda ABŞ buna qarşı çıxmışdı. Vaşinqton enerji sahəsində Tehrana qarşı tətbiq edilmiş sanksiyaların təsirinin zəifləyəcəyindən narahat idi. İndi Vaşinqtonun mövqeyində hansısa dəyişiklik varmı? Qərbin sanksiyaları altında olan iki ölkə ilə Azərbaycanın əməkdaşlığına münasibət necə ola bilər? Azərbaycan üzərindən Ermənistana işıq verilməsi sülhə hansı töhfəni verə bilər? İrəvan və Tehran elektrik enerjisi müqabilində qaz sazişini həcmləri artırmaqla 2030-cu ilə qədər uzadıb. Sənədi "Yerevan TES" QSC-nin direktoru Aram Qazaryan və İran Milli Qaz Şirkətinin rəhbəri Məcid Çegeni imzalayıblar. Ermənistanın ərazi-idarəetmə və infrastruktur naziri Qnel Sanosyan sazişi sərfəli adlandırıb: "Çünki bu, İran qazının idxalının və Ermənistanın elektrik enerjisi ixracının artması üçün imkanlar açır".

Siyasi ekspert Azad Məsiyevin bildirdiyinə görə, Ermənistanla Azərbaycan arasında sülh sənədi olmadığına görə hələlik bu məsələlərin həlli real görünmür. A.Məsiyev 10 noyabr bəyanatının təşəbbüskarının Rusiya olduğunu qeyd edərək xatırladır ki, ortada razılaşma var - nəqliyyat kommunikasiyaları açılsın: "Amma bu məsələlər reallaşmayıb, sülh müqaviləsi imzalanmayıb deyə elektrik enerjisinin Azərbaycandan keçərək Ermənistana ötürülməsi mümkün deyil. Ancaq İranla belə bir əməkdaşlıq mümkündür. Şimal-Cənub dəhlizinin açılması plandadır. Eləcə də bu proyekt ola bilər. Ancaq bunun üçün İran-Azərbaycan münasibətləri də yaxşı səviyyədə olmalıdır. Çünki iqtisadiyyatla siyasət biri-birinə bağlıdır, təsir imkanları var. Hazırda Tehran-Bakı xəttində əlaqələrin normallaşmasından asılı olan bir təklifdir".

Siyasi ekspert Fuad Əliyev bu platformanın reallaşmasını bir şərtlə mümkün hesab edir - Ermənistan götürdüyü öhdəlikləri yerinə yetirsin: "Rusiyanın energetika naziri maraqlı təklif səsləndirib. Lakin Ermənistanın silahlı qüvvələri Azərbaycan ərazisində qala-qala onlara bizim üzərimizdən işıq vermək həddindən artıq humanistlik olardı. Biz nəqliyyat kommunikasiyalarının, bölgədə müxtəlif sahələr üzrə əməkdaşlıq platformalarının əleyhinə deyilik, yetər ki, Ermənistan 10 noyabr sənədinin bütün müddəalarını icra etsin. Yəni hər bir əməkdaşlıq qarşılıqlı addımlarla həyata keçirilir. Azərbaycan o qədər sadəlövh deyil ki, birtərəfli qaydada razılaşsın. Bunun üçün Zəngəzur koridoru ilə bağlı bir hərəkətlilik olmalıdır, Qarabağdan erməni silahlı dəstələri çıxmalıdır, Azərbaycanın qərb bölgəsi ilə Naxçıvan arasında quru yol açılmalıdır, o zaman digər müstəvilərdə də projelər istisna deyil. Bu gün Ermənistan sərhəddə atəşkəsi pozsun, Qarabağdakı terrorçu köpəklərin üzərinə partlayıcı maddə quraşdırıb üstümüzə it göndərsin, səngərlər qazsın, Xankəndinə göndərdiyimiz 40 ton un məmulatını qəbul etməyə mane olsun, sonra da biz deyək ki, Rusiyadan gələn elektrik enerjisi Azərbaycandan keçməklə Ermənistana ötürülsün. Dediyim kimi, hər bir əməkdaşlıq formatı qarşılıqlı anlaşma və etimad tələb edir. Biz Ermənistanın bölgədə sülhə, sabitliyə töhfə verdiyini görmürük. Əksinə, regionda sülhə təhdid yaradan, bölgəni müxtəlif güc mərkəzlərini cəlb etməklə qarışdıran elə rəsmi İrəvandır".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Azərbaycanda həbs edilən İran casuslarının şəkilləri Kərbəla yolunda

Molla rejiminin onları "qəhrəman" kimi təqdim etməkdə məqsəd nədir?

MOUZE Telegram kanalı məlumat yayıb ki, molla rejimi Azərbaycanda həbs edilən casuslarını "qəhrəmanlaşdırır". Məlumatda bildirilir ki, molla rejiminin nümayəndələri və bəzi adı azərbaycanlı olanlar Kərbəla yolunun üstündə Azərbaycanda həbs edilən İran casuslarının fotolarını vurublar. Fotolar elə bir yerə vurulub ki, insanlar onu görə bilir. Molla rejimipərəstlər Azərbaycan haqda hədyanlar danışırlar, o casuslarını isə "göylərə" qaldırırlar. Həyata keçirdikləri təbliğatla guya onları Hüseyn yolunun, Kərbəla yolunun "fədailəri" kimi qələmə verməyə çalışırlar, casusları "qəhrəmanlaşdırırlar" .

İrana casusluq etdikləri və molla rejiminin siyasətini yaydıqları üçün həbs edilən Azərbaycan vətəndaşlarını "qəhrəman" kimi təqdim etməkdə məqsəd nədir?

İran bir tərəfdən münasibətlərin yumşaldılmasına yönəlik mesajlar verir, digər tərəfdən bu cür əməllərə əl atır. İranda din dövlətdən ayrı deyilsə, bu təbliğatı aparan da demək ya dövlətdir, ya da münasibətlərin normallaşmasa qarşı olanlar var.

Azərbaycan Parlamentinin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov İran tərəfini atdığı addımlarda ehtiyatlı olmağa çağırdı: "Hesab edirəm ki, bu gün Azərbaycanla münasibətlər yeni bir mərhələyə qədəm qoyub. Bilirsiniz ki, İranın hərbi qurumlarının nümayəndələri Azərbaycanda səfərdə oldular, bir çox müsbət açıqlamalar verdilər. İranın xarici işlər nazirinin sözçüsü də Azərbaycanın mövqeyini dəstəkləyən müəyyən bəyanatlar verdi. Bizim əlaqələr yeni bir mərhələyə daxil olub. Azərbaycan bu əlaqələrin inkişaf etdirilməsində maraqlıdır, bunun inkişaf etməsi üçün də səylər göstərir. Düşünürəm ki, İran tərəfi də bu münasibətlərə xələl gətirə biləcək addımlardan uzaq olmalıdır. Hesab edirəm ki, bu cür məlumatlar da yayıldıqca həmin məlumatlar ilk növbədə, dəqiqləşdirilməlidir. Bilirsiniz ki, Kərbəla artıq İraq ərazisidir. Burada əgər belə bir hal varsa, buna ən qısa zamanda müdaxilə edilməli və bu addımın qarşısı alınmalıdır. Çünki həmin şəxslər sırf Azərbaycan qanunlarını pozduqlarına və ya pozmaqda şübhəli bilindiklərinə görə həbs olunublar. İndi onların bu cür formada qəhrəman kimi təqdim olunmaları, şəkillərinin asılması doğru deyil. Bir da onu xüsusi qeyd etmək istəyirəm ki, bu ikitərəfli əlaqələrə xələl gətirən bir yanaşmadır. Ona görə də bu cür addımlarda İran tərəfi çox diqqətli, ehtiyatlı olmalıdır. Əgər bu, dövlət qurumları tərəfindən edilibsə, buna görə həmin qurumlar məsuliyyət daşıyır. Yox, əgər bunu fərdi qaydada kimlərsə edibsə, onlarla bağlı da müəyyən addımlar atılmalı və qərar qəbul olunmalıdır. Hesab edirəm ki, hazırkı dövrdə az da olsa, münasibətlərin yenidən bərpa olunacağına cəmiyyətdə müəyyən qədər ümidlər yaranıb. Əgər bu inam və ümid zədələnərsə, bu, növbəti mərhələdə bizim üçün bir sıra problemlər yarada bilər. O baxımdan, atılan addımlar ehtiyatlı olmalıdır".



İlahiyyatçı Rəsul Mirhəşimli hesab edir ki, əgər bu məlumat doğrudursa, o zaman İranın Azərbaycana yönəlik son günlərdəki davranışları səmimi deyil: "Bu məlumat nə qədər həqiqətə uyğundur, bu barədə informasiyanı Kərbəla ziyarətində olan azərbaycanlı zəvvarlar vasitəsilə dəqiqləşdirmək olar. Əgər məlumat doğrudursa, o zaman İranın münasibətləri normallaşdırmaq üçün verdiyi vədlər səmimi görünmür. Ümumiyyətlə, Kərbəlada təbliğ olunacaq dəyər şəhidlik, Allah yolunda, əqidəsi uğrunda mücadilə edən insanlar olmalıdır. Şəhidlik məktəbinin qurucusu olan İmam Hüseyn (ə) və əqidədaşlarını ziyarət zamanı siyasi manipulyasiya elementləri şəhidlik ruhuna sayğısızlıq sayıla bilər. Bu hal yaşanıbsa, o zaman İran özünün sahib olduğu dini dəyərlərə də sayğısızlıq göstərmiş olur. Başqa ölkələrə casusluq etdiyi ittihamı ilə İranda həbs edilən Avropa və başqa xarici ölkə vətəndaşları var. İranda İngiltərə adına casusluq ittihamı ilə edam edilən keçmiş müdafiə naziri Əli Rza Əkbərinin şəkilləri London küçələrində asılsa, Tehran rejimi bu faktı böyük skandal olaraq qarşılayar, buna etiraz edərdi. Bir ölkə, onun rəsmi təmsilçiləri özlərinə nəyisə rəva görmürlərsə, o zaman başqa ölkə üçün də siyasi etikadan uzaq hərəkətlərə yol verməməlidir. Əgər "Teleqram" kanalında yayılan informasiyalar doğrudursa, bu, hər cür etikadan uzaq hərəkətdir. Kərbəla şəhidlərinin ziyarəti bu cür çirkin vasitələrdən uzaq tutulmalıdır. Kərbəla şəhidləri Haqq uğrunda, zülmə qarşı canlarını fəda etmiş Əhli-Beyt mənsubları və onların əqidədaşlarıdır. Bu əqidəyə sayğı ilə yanaşmaq müsəlman olan hər kəsin borcudur. Əxlaqa sığmayan hərəkətlərə yol vermək ilk növbədə özünü biabır etməkdir".

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"

Rus politoloqdan "A" işarəsinə heyrətamiz izah - İsraillə əlaqəsi varmı?

Numiroloq: "Çevrilmiş " " işarəsi torpaq deməkdir, yəni..."

Son günlər sosial mediada trendə çevrilən " " işarəsi gündəm mövzulardan biridir. Bu işarənin nə məna verməsindən asılı olmayaraq, ermənilərdə qorxu yaratdığı aydındır. Maraqlıdır ki, heç bir rəsmi görüntüdə əks olunmayan element düşmən tərəfini ciddi şəkildə həyəcanlandırıb.



Rusiyalı politoloq Qriqori Trofimçuk bununla bağlı fikirlərini bildirib. O deyir: "Azərbaycanın informasiya-siyasi meydanında qəfildən yeni bir işarə peyda oldu: baş hərfi "A" tərsinə çevrildi - . Üstəlik, mərkəzi xətt küncdən kənara çıxır, sanki məktubun özünü kəsir. Mən indi Ermənistan-Azərbaycan qarşıdurmasının siyasi hissəsinə keçməyəcəyəm (- "Artsaxın nəhayət bağlanan mövzusu, Qarabağ probleminin sonu deməkdir - o belə düşünür), yalnız simvol üzərində dayanacağam". **Ekspert deyib ki, bu işarəni azərbaycanlılara kimin təklif etdiyini bilmir:** "Amma onu meydana çıxarmaqla Bakı heyrətamiz peşəkarlıq nümayiş etdirdi.

O mənada ki, ölmüş SSRİ-nin xarabalıqlarındakı məmurlar, prinsipcə, nə mülki, nə də hərbi simvolların mənasını başa düşürlər. Onlar bu barədə, ümumiyyətlə, heç nə bilmirlər". **Onun fikrincə, bu işarə lazım olan hər şeyə malikdir:** "Yığcamlıq, dünyanın istənilən yerində ani oxunuş; - aydın siyasi məna; - kommersiya şirkətlərinin peşəkar loqolarında tez-tez istifadə olunan ilk hərf; - "A" hərfi dünyanın bütün dillərinə daxildir. Sadəcə, möhtəşəm. Qrafiklər tapşırığa tam uyğundur. Mən məmurları tanımıram. Xüsusi medal lazımdır".

Trofimçuk əlavə edib ki, yalnız istinad kitablarında tapıla bilən " " işarəsinin digər məlum mənalarını xatırlamaq qalır: ""Köklü dəyişikliklərin simvolu"... "Riyazi məntiqdə universal kəmiyyət göstəricisidir". "amulet"..."taleyinə tamamilə təsir etmək imkanı" və s.

Yalnız bir neçə beynin düşünüb təklif edə bildiyi və heç kimə nəyisə sübut etməyin mümkün olmadığı qrafik minimalist assosiativ sənətin ən mürəkkəb sahəsində rəsmilərin və peşəkarların bir-biri ilə ortaq dil tapa bilməsi, sadəcə, inanılmazdır. Burada axmaqlara yer yoxdur".

Belə iddia var ki, bu trend İsraildən gəlib, çünki onların simvoluna oxşarlıq elementi var.

Yeri gəlmişkən, zaman-zaman mütəxəssislərin müharibələrin başlanması, davam etmə müddəti, eyni zamanda bitməsi ilə bağlı rəqəmlərin hansısa məna kəsb etməsi ilə bağlı fikirlərini görürük. Elə Rusiyanın ictimai xadimi, hüquq müdafiəçisi Sergey Mikiten də Birinci və İkinci Dünya müharibələrinin başlama tarixi ilə Rusiya qoşunlarının Ukraynaya hücum tarixini müqayisə edərək maraqlı hesablama aparıb. O deyib ki, Rusiya müharibəyə və Ukrayna xalqının əsl soyqırımına 24 fevral 2022-ci ildə başlayıb. Bu tarixin bütün rəqəmlərini bir araya toplasaq, 5 rəqəmini alırıq. Birinci və İkinci Dünya müharibələrinin başlama tarixlərinin hesablanması nəticəsində eyni rəqəm alınır.

Siyasi analitik Rizvan Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, əslində bu, NATO ölkələrində və Türkiyədə çoxdanın ənənəsidir ki, hərbi əməliyyatlar zamanı texnikanın üzərinə xüsusi bir loqo, hərif, simvol seçilir: "Əməliyyatın adı da ola bilər, simvollar da ola bilər. Son vaxtlar simvollara daha çox üstünlük verirlər. O baxımdan, Azərbaycan da o təcrübədən istifadə edib ki, bir işarədə daha çox məna, fikir ehtiva olunsun. Bu yenilik deyil. Çevrilmiş " " işarəsinin bir neçə mənası var. Birincisi Kvant fizikasında cəm, bütöv deməkdir. Başqa məna da verirlər ki, çevrilmiş " " işarəsinin ingilis dilində Armeniya - yəni Ermənistanın alt-üst olmasıdır, əlbəttə, bu ehtimallardır, rəsmi heç kəs təsdiqləmir. Yaxud Zəngəzurdan dəhlizin keçməsi işarəsidir. Buna bənzər bir sıra məntiqi olan və olmayan açıqlamalar var. Fakt odur ki, erməni tərəf təşvişdədir. Hətta işarələrlə də düşmənimizi qorxuda bilirik. Müasir müharibənin tərkib hissəsi kimi həm psixoloji, həm koqnitiv (şüur, düşüncə və təfəkkürlə bağlı olan), həm informasiya müharibəsi aparılır ki, bununla da düşməni hazırlayırsan ki, onun beynində sənə lazım olan fikir formalaşsın, o elə bilsin ki, bu onun beyninin məhsuludur. Bu baxımdan, Azərbaycan çox uğurlu iş gördü. İstər Rusiya, istərsə də xarici ekspertlər çox yüksək qiymətləndirdilər. Tənqidlər də oldu. Yenilik olanda tənqidlər də olur. Qəbul etməsələr də, bu yeni dünyanın reallığıdır. Dediyim kimi, hərbi sistemdə dəfələrlə, bizdən də öncə istifadə olunub. Texnikanın fərqli işarələrlə nişanlanması hərbi əməliyyatlar vaxtı müasir döyüş dronlarından istifadə edən operatorlar üçün lazımdır. Bunu hərbçilər bilir və geniş açıqlamasını vermirlər. İsraildən gəldiyini deyə bilmərəm. Amma NATO ölkələrinin əksəriyyətində bu var. Azərbaycanın da NATO sisteminə inteqrasiyası çoxdandır başlayıb, hərbi texniki məsələlərlə bağlı. Əsas müttəfiqimiz Türkiyədir. İstər texnikalardan, istər beyindən, ağıldan, hərbi sahəyə aid olan yeniliklərdən istifadə etmək Azərbaycanın haqqıdır. Məqsəd odur ki, NATO standartlarına görə döyüş zamanı minimum itkilər olmalıdır. Minimum itkilər verərək maksimum düşməni ram etmək. Halbuki Rusiya təcrübəsindən görürük ki, öz ordusunu da məhv edib, düşmənin ordusunu da. Biz NATO sistemi ilə gedirik. 44 günlük müharibədə də gördük ki, Azərbaycan maksimum çalışır mülkü vətəndaşlar da, hətta hərbiçilər arasında da minimum itki olsun. Ən əsas Azərbaycanın itkisi minimuma ensin. Nəyə görə? Rus hərbi qaydalarına görə əslində hücum edən tərəfin 5-7 dəfə çox itkiləri olur, əsas da döyüş dağlarda olarsa. 44 günlük müharibə bizə tam əksini göstərdi. Ona görə də bu təcrübə cəmiyyətimizdə inkişaf etməlidir, cəmiyyətimiz də buna öyrəşməlidir".

Qafqazın tanınmış numeroloqu Xəyal Məmmədov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. O dedi ki, rusiyalı politoloqun dediyi torpağın adı "Artsax" deyil, Qarabağdır: "Çevrilmiş " " işarəsinin "Artsax"a aidiyyəti yoxdur. O ki qaldı o işarənin mənasına, o, torpaq ünsürünün işarəsidir. İndi əsas iddiamız Zəngəzur dəhlizinin açılmasıdır. O simvolika birbaşa onu işarət edir ki, Zəngəzur koridoru istər ruslar istəsin, istər ermənilər istəməsin, fərqi yoxdur, hər kəs özü bilər. Azərbaycanın öz daxili və xarici siyasəti var. Bu işarə də o deməkdir ki, Zəngəzur koridoru onsuz da açılacaq. O işarə də torpaq ünsürüdür, 4 ünsür - od, su, hava, torpaq. Torpaq ünsürünün işarəsi o cür yazılır. Bu "Vikipediya"da da var. Torpaq da bizimdir! Zəngəzur Azərbaycanın ərazisidir".

Ekspert proqnozlarla bağlı suala cavab verərkən dedi ki, heç bir müharibəni başlamamış halda, bitmə tarixini demək mümkün deyil: "Sanki doğulmamış insan haqqında bir məlumat vermək mümkün deyil. Ona görə dekabr ayında fərman veriləndə ki noyabrın 10-u Zəfər günü kimi qeyd olunsun. Həmin gecə bir məqalə yazdım, izah etdim ki, müharibə 44 gün davam edib, 10 noyabrı qələbə günü kimi qeyd etmək düzgün olmaz. 8 daha məntiqlidir, çünki 8 noyabrda Şuşa alınıb, həm də 8 may, 92-ci ildə ermənilər Şuşada qələbələrini qeyd etmişdilər. 44-ün mənası da 4+4 cəm olaraq 8 edir. Yəni işlərin artması, karyerada irəliləmək. O zaman proqnozları vermişdim".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"



Ceyhun Bayramov BQXK-nın prezidenti ilə görüşdü

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Mirjana Spolyariç Eggerlə görüşüb. Bu barədə Azərbaycan XİN-in "X" hesabında paylaşım edilib.

Görüşdə regiondakı son vəziyyət fonunda Azərbaycan ilə BQXK arasında əməkdaşlığın hazırkı vəziyyəti, o cümlədən çağırışlar və gələcək perspektivlər müzakirə olunub. Azərbaycanın XİN başçısı da rəsmi "X" səhifəsində BQXK prezidenti ilə görüşü barədə paylaşım edib.

"Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Mirjana Spolyariç Eggerlə görüşməyimə və Azərbaycanla BQXK arasında əməkdaşlığın hazırkı vəziyyəti ilə bağlı fikir mübadiləsi aparmağıma şad oldum", - nazir bildirib.

Xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində BMT-nin Cenevrədəki Ofisinin (UNOG) baş direktoru Tatyana Valovaya ilə görüşüb.

XİN-dən Modern.az-a verilən xəbərə görə, görüş zamanı Azərbaycan-UNOG əməkdaşlığının müxtəlif istiqamətləri, eləcə də regional məsələlər müzakirə edilib.

Azərbaycanla UNOG arasında əməkdaşlıqdan məmnunluq ifafə olunaraq, UNOG-nin insan hüquqları, gənclər, gender bərabərliyi, dayanıqlı inkişaf məqsədləri, ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf kimi istiqamətlər üzrə fəaliyyətlərinə dəstək ifadə olunub.

Azərbaycanın öz növbəsində BMT çərçivəsində aktiv fəaliyyət göstərdiyi, 2023-cü ildə BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramına (SPECA) sədrlik etdiyi və cari ilin noyabr ayında Bakıda SPECA-nın sammitinin baş tutacağı diqqətə çatdırılıb.

Görüş zamanı bölgədəki vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə məlumat verilib. Postmünaqişə dövründə Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistanın təxribatları diqqətə çatdırılıb. Ölkəmizə qarşı mina təhdidləri xüsusi vurğulanıb. Bölgədə "humanitar vəziyyət" və "blokada" barədə iddiaların əsassızlığı barədə faktlar qeyd edilib.

"TikTok"da ordu ilə bağlı yalan məlumat yayan saxlanıldı

Daxili İşlər Nazirliyi sosial şəbəkələrdə Azərbaycan Ordusu və hərbçiləri ilə bağlı yalan məlumatlar paylaşan şəxslərlə bağlı tədbirlər görür.

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, davam etdirilən tədbirlərlə "TikTok" platformasında feyk profillər vasitəsilə döyüş əməliyyatları və itkilər olması ilə bağlı yalan məlumatlar paylaşan şəxs - 1998-ci il təvəllüdlü İbrahimli Pərviz Vüqar oğlu polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb.

Araşdırmalarla onun bu qəbildən olan məlumatları paylaşmaqda məqsədi öyrənilib. Onun əməllərində inzibati xətanın tərkib əlamətləri olduğundan barəsində toplanan materiallar baxılması üçün məhkəməyə göndərilib.

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

9 sentyabr separatizm sınağından çıxmayanlar - susanlar kimlər oldu?

Bəzi dövlətlər bölgə ilə bağlı öz planlarını üstün tutaraq separatçıların keçirdiyi qondarma seçkilərə reaksiya verməmək taktikasını seçib

Sentyabrın 11-də Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin sentyabrın 9-da keçirilmiş "seçkilər" adlı qanunsuz fəaliyyəti barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar.



Deputatlar həmkarlarını Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn addımlara düzgün siyasi qiymət verməyə və qeyd olunan qondarma "seçki" adlandırılan qanunsuz fəaliyyəti qətiyyətlə pisləməyə çağırıblar.

Qeyd edək ki, məsələn, Ukrayna və Moldova mövqeyini bildirsə də, Azərbaycana MDB-dəki yaxın dövlətlər susqunluğa üstünlük veriblər. Buraya bəzi türkdilli dövlətlər, eləcə də Belarus da daxildir. Avropa İttifaqı seçkini tanımadığını bəyan edib, amma bu qurum daxilində bəzi bizə yaxın dövlətlər də var ki, onların ayrı-ayrılıqda mövqe bildirməsi yaxşı olardı.

Modern.az Xankəndidə keçirilən qondarma "seçki" ilə bağlı beynəlxalq reaksiyanı araşdırıb. Dünənə qədər olan məlumata görə, Qarabağda seçkilərə ilk reaksiya verən **Türkiyənin Xarici İşlər Nazirliyi** olub. Türkiyə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını təşkil edən bu qeyri-legitim seçkini tanımır. **Ukrayna XİN** Azərbaycanın Qarabağ ərazisində keçirilmiş qondarma "prezident seçkiləri"ni pisləyib. Qeyd edilib ki, bu qondarma "seçkilərin" keçirilməsi beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və nəticələri etibarsızdır.

Moldova XİN də bəyan edib ki, Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"nin beynəlxalq hüququn norma və fundamental prinsiplərinə zidd olduğunu nəzərə alaraq nəticələri tanımır.

Pakistan XİN Azərbaycanın Qarabağ bölgəsindəki "seçkilər"i pisləyib.

ABŞ Dövlət Departamenti "seçkilərlə" bağlı Qarabağı müstəqil və suveren ölkə kimi tanımadığını bildirib. ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller "prezident seçkiləri"ni tanımadığını qeyd edib: "Biz ötən həftə də bəyan etdik ki, Qarabağı müstəqil və suveren ölkə kimi və eyni zamanda burada keçirilən qondarma "prezident seçkiləri"ni tanımırıq ".

Türk Dövlətləri Təşkilatının Katibliyi də Azərbaycan Respublikasının ərazisində qanunsuz separatçı rejim tərəfindən keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb.

"9 sentyabr 2023-cü il tarixində Xankəndidə keçirilən qondarma "prezident seçkiləri"ni nəzərə alaraq, Avropa İttifaqı bir daha bəyan edir ki, o, "seçkinin" keçirildiyi konstitusiya və hüquqi çərçivəni tanımır". Bunu isə Aİ-nin Xarici Fəaliyyət Xidmətinin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə sözçüsü Nabila Massrali bildirib.

"Eyni zamanda Aİ hesab edir ki, Qarabağ ermənilərinin Bakı ilə nəticəyönümlü müzakirələr aparmağa qadir və buna hazır olan de-fakto liderlik ətrafında cəmləşməsi vacibdir. Aİ bu prosesi dəstəkləməyə sadiqdir" - o qeyd edib.

Britaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Fergus Auld da İngiltərənin seçkilərə münasibətini bildirib. "Böyük Britaniya sentyabrın 9-da Qarabağda keçirilən qondarma "prezident seçkiləri"ni tanımır. Biz beynəlxalq hüququn prinsip və normalarının əhəmiyyətini vurğulayaraq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik", - deyə səfir qeyd edib.

Macarıstan Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır, buna görə də Qarabağdakı qondarma "prezident seçkilərini" qeyri-legitim hesab edir. Bu barədə Macarıstan Xarici İşlər Nazirliyi Mətbuat Xidmətinin rəhbəri Mate Patsolay sentyabrın 11-də bildirib. "Münaqişənin mümkün qədər tez bir zamanda sülh yolu ilə nizamlanmasına çağırırıq", - açıqlamada deyilir.

Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu da 9 sentyabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Qarabağ bölgəsində keçirilmiş qondarma "seçkiləri" tanımır. Bu barədə dostluq qrupunun sədri Həmid Bari Həmid özünün "X" hesabında yazıb. O bildirib ki, qondarma "seçkilər" beynəlxalq hüququn fundamental norma və prinsiplərinə zidddir.

Rumıniya Xarici İşlər Nazirliyi də bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, Rumıniyanın Xarici İşlər Nazirliyi Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"ni tanımır. XİN Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini bir daha bəyan edir və regiondakı bütün məsələlərin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq siyasi yolla həllinin tərəfdarıdır.

"Özbəkistan Respublikası dost Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir, onun daxili işlərinə hər hansı müdaxiləni pisləyir və 9 sentyabr 2023-cü ildə Qarabağda keçirilmiş qondarma "prezident seçkilərini" tanımır", - ölkənin Xarici İşlər Nazirliyinin sosial media hesabında bildirilib.

Gürcüstan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki separatçıların keçirdiyi qondarma "seçkilər"i tanımadığını bəyan edib və dünya ictimaiyyətini Ermənistanın destruktiv addımlar atmasının qarşısını almaq üçün effektiv tədbirlər görməyə çağırıb.

Lakin Azərbaycan Milli Məclisinin yuxarıda qeyd etdiyimiz müraciəti də onu göstərir ki, Bakı reaksiyalardan o qədər də razı qalmayıb.

Politoloq Murad Sadəddinov "Yeni Müsavat"a bildirdi ki, Avropa İttifaqı kimi beynəlxalq təşkilatların qondarma seçki ilə bağlı bəyanatlarını prinsipcə müsbət hesab etmək olar. Eləcə də Türkiyə, ABŞ, Pakistan, Britaniya, Macarıstan kimi dövlətlərin də mövqeyi müsbət qiymətləndirilməlidir: "Qondarma seçkini kəskin pisləyən ölkələrin bəziləri isə özləri uzun illərdir separatizmdən əziyyət çəkirlər. O ölkələr daim Azərbaycanın mövqeyini, ərazi bütövlüyünü müdafiə edirlər və Qarabağdakı erməni separatizmini pisləyiblər. Onların da 9 sentyabrda separatçıların keçirdiyi qondarma "seçki"ni pisləməsi və nəticələrini tanımadıqlarını elan etmələri Azərbaycan üçün önəmlidir və alqışlanmalıdır. Bəzi dövlətlərin və beynəlxalq təşkilatların bəyanatlarında qondarma seçkilərin nəticələrini tanımadıqları ifadə olunsa da, ardınca birmənalı olmayan ikibaşlı fikirlər də yer alır. Məsələn, bəzilərinin bəyanatlarında "tərəfləri öz aralarında razılaşmalara gəlməyə çağırırıq" kimi fikirlər yer alır ki, bu cür fikirlər müsbət qiymətləndirilə bilməz. Bu cür fikirlər qondarma seçkilərin nəticələrini tanımamaq fikirləri ilə ziddiyyət təşkil edir. Azərbaycanı razı salmayan isə budur, eyni zamanda Azərbaycan haqlı olaraq bütün beynəlxalq təşkilatların və dövlətlərin separatçıların qondarma seçki şousuna düzgün münasibət bildirmələrini gözləyir. Hesab edirəm ki, bugünlərdə digər dövlətlərin və təşkilatların mövqeyi də ifadə olunacaq. Proses davam edir".

Politoloq hesab edir ki, bəzi dövlətlər və beynəlxalq təşkilatlar isə öz maraqlarını, bölgə ilə bağlı planlarını beynəlxalq hüquqdan üstün tutaraq separatizmə, separatçıların keçirdiyi qondarma seçkilərə reaksiya verməmək taktikasını seçirlər. Separatizmə göz yummaq isə sonda hətta dünya üçün böyük problemlər yaradır. Ukraynanın ərazisindəki separatizm ocağına vaxtında sərt beynəlxalq təpki olsaydı, bugünkü dünya üçün təhlükə və problem yaradan Ukrayna müharibəsi olmazdı.

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

"Şahramanyanı qorxduqları üçün təbrik etmədilər"

Ermənistanın sabiq müdafiə naziri, parlamentdəki müxalif "Hayastan" fraksiyasının rəhbəri Seyran Ohanyan baş nazir Nikol Paşinyanın və hakimiyyətdəki digər rəhbər şəxslərin Qarabağdakı separatçı rejimin qondarma "prezident"i olan Samvel Şahramanyanı təbrik etməmələrinə münasibət bildirib.

"Sputnik Armenia" xəbər verir ki, Ohanyan bunu qorxu ilə əlaqələndirib.

"Ermənistan hakimiyyəti Samvel Şahramanyanı Azərbaycanla və beynəlxalq aləmdə əldə olunan razılaşmalardan qorxduğu üçün təbrik etməyib. Cəsur liderlər təbrik edərdilər. Rusiya Federasiyasından Qarabağa humanitar yüklərin çatdırılmasına gəlincə, bu addım "Laçın dəhlizi"nin tam açılmasına töhfə verəcək", - deyə o qeyd edib.

"Rusiya tərəfi də addımlar atmalıdır", - Ohanyan əlavə edib. O hesab edir ki, qondarma rejim "daha müstəqil və azad quruma" çevrilməlidir.



Gürcü baş nazirlə bağlı təyyarə qalmaqalı

Gürcüstanın baş naziri İrakli Qaribaşvili oğlunu ABŞ-a oxumağa aparmaq üçün dövlət təyyarəsindən istifadə edib. Modern.az Gürcüstan mətbuatına istinadən xəbər verir ki, onun bu addımı böyük skandala çevrilib. Müxalifət və vətəndaş cəmiyyəti baş nazirin dövlət büdcəsindən şəxsi məqsədləri üçün istifadə etməsinə etiraz ediblər.

Sonra isə Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin təyyarə skandalına aydınlıq gətirilib. Bu barədə Dövlət Mühafizə Xidmətinin rəhbəri Anzor Çubinidze danışıb.

Çubinidze qeyd edib ki, hökumət təyyarəsinin Münhenə və geriyə özəl çarter reysi ilə bağlı baş nazirin atası Tariel Qaribaşvili avans ödəyib. Onun sözlərinə görə, ilkin ödəniş 34 min avro ekvivalenti təşkil edib və məbləğ bütün xərclər hesablandıqdan sonra tənzimlənə bilər. Qeyd olunub ki, Qaribaşvilinin atası Kaxeti bölgəsinin Dedoplistskaro bələdiyyəsinin Xornabuji kəndində qeydiyyatdadır. Hazırda o, şərab şirkətinin 50% səhmlərinin sahibi kimi siyahıya alınıb.

Bu, atasının baş nazirə ilk bahalı hədiyyəsi deyil. 2021-ci ildə İrakli Qaribaşvilinin valideynləri - təqaüdçü ata-ana ona 150 min lari məbləğində əmanətlərini bağışlayıb. Bu məlumatlar Qaribaşvilinin vergi bəyannaməsində yer alıb.



Ucuz pərgar

Zamin HACI
zaminhaci@gmail.com

"Oğru elə bilər hamı oğrudur"

(Azərbaycan ata sözü)

Bir-iki günə dərslər açılacaq, hörmətli təhsil nazirimiz demişkən, "yazıb-oxuya bilməyən" uşaqlarımız yenidən təhsil ocaqlarının alovuna tullanacaqdır. Ancaq zərəri yoxdur, axırda hamısı universitetə girər, inşallah, çünki yaxın onillikdə qəbul keçid ballarının 20-30-a düşəcəyini proqnoz edirik.

Hazırda əsas alış-veriş mövzusu məktəb bazarlığıdır və hörmətli valideynlərimiz hərəsi bir sürü burnufırtıqlı uşağın əlindən tutub dükanları dolaşır. Çoxlu mənasız, məzmunsuz, faydasız alətlər və vəsaitlər alınır. Məsələn, plastilin. Mən bu haqda bir dəfə də yazmışam, hələ plastilindən nəsə qayıran uşaqlara rast gəlməmişəm. Guya heykəltəraş olacaqlar? Onsuz bu sahə Ömər müəllimin monopoliyasındadır. Rəsm dərsi bizim məktəblərdə tamam avara dərs kimi qəbul edilib. Təsəvvür elə, keçən il rəsm müəllimi olmağın keçid balı 125 bal idi, qurtarıb işləyəndə də 345 manat maaş alırsan. O üzdən, məktəbliyə albom, karandaş, flomaster (bəlkə də plamastır - bunun adını hərə bir cür deyir; sözgəlişi, bir dəfə küçədə, tikinti materialı piştaxtasında "əlibasdır" elanı görüb şok keçirmişdim, sonra satıcının alebastr yazmaq istədiyini anlamışdım), xətkeş, qayçı, pozan, çanta, dəftər, qələm almaq artıq xərcdir. Çalışın uşaqlar tik-tok videoları çəkməyi öyrənsin. Başqa biliklər bizə lazım deyil. Onunçün də məktəb bazarlığında mikrafon, işıq qurğuları, mobil telefon almaq məsləhətdir.

Xalqımızın dəyərləri, baxışı bizim üçün vacibdir, lakin bəzən anlamaqda çətinlik çəkirik. Elə bu məktəb təmasında təzəlikcə maraqlı hadisə oldu: rayonlardan birində icra başçısı qəbul imtahanında fərqlənən, universitetə girən uşaqlara hədiyyələr vermişdi. Jurnalistlər isə onu tənqid eləmişdilər ki, niyə uşaqlara ucuz hədiyyə veribdir. Sən demə, hədiyyə 6 manatlıq oyuncaq saat imiş.

Burda haşiyə çıxım. Həqiqətən ucuz qiymətləndirilmək bəzən adama mənfi təsir edir. 1999-da Gəncənin icra başçısı bizim hərbi hissəyə gəlmişdi, mənə də əldəqayırma saat bağışladı, xətrimə dəydi. Belə şeylər vətənpərvərliyə ziddir.

Jurnalistlər icra başçısını uşaqlara ucuz hədiyyə verdiyi üçün yox, ümumiyyətlə hədiyyə verdiyi üçün tənqid etməlidirlər. Çünki mən biləni icra hakimiyyətində hədiyyə fondu kimi bir zad olmur. Bəs başçı o şeylərin pulunu haradan alır? Deməli, həmin məktəblilərin valideynlərinin cibinə girir, oradan əkişdirib özlərinə hədiyyə verir.

İndi hesab edək başçının maaşı həmin 6 manatlıq saatları almağa imkan verir, şəxsi pulunu xərcləyib, dövlət büdcəsinə və xalqın cibinə girməyib. Lakin bugünlərdə mən başqa yüksək vəzifəli şəxsin hərbi hissədə əsgərlərə bahalı saatlar bağışladığını gördüm. O marka saatlar minimum 250 manatdan başlanır, əgər 10 əsgərə belə saat versə, vəzifəli şəxs bir ay ac qalmalıdır. Bu da dövlətçiliyimizə yaraşmaz. Güman edirəm Hesablama Palatası və hərbi prokurorluq belə məsələləri araşdırmalıdır. Xalqa uşaq pulu verilsə özü öz uşağına saat alar, heç kəsdən minnət götürməz.

Sözümün canı odur ki, uca millətimizin prinsipləri bəzən anlaşılmazlıq, təzad yaradır. Hamı oğurluğu pisləyir, lakin başqalarının elədiyi oğurluğu. Özümüz eləyəndə bunun adı fərasət, bacarıq, igidlik olur. Hamı rüşvətə pis baxır, lakin verəndə. Alanda şirinlik, haqq, "qısmat" (Surət demişkən) adlanır. Yalan, yaltaqlıq, namərdlik, əliəyrilik, fırıldaq, dələduzluq və sairə keyfiyyətlər də eləcə - qətiyyən yaraşdırmırıq. Başqalarına.

Sonda ucuz pərgar yeri bilirəm, kim istəsə yazım. Əks halda, camaatın uşağı çevrə çəkəcək, sizinki qalacaq.



Prezidentin Türk dövlətlərinin bayrağının sayını artırmaq mesajı

Toğrul İsmayıl: "Bundan sonrakı addım Şimali Kiprin müstəqil dövlət kimi tanınması məsələsi olacaq"

Qarabağdakı gərginlik fonunda Prezident İlham Əliyevin ötən həftə Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirləri ilə görüşdə verdiyi mühüm bir açıqlama qismən ikinci planda qaldı. Halbuki Prezident Əliyevin açıqlaması Türki dünyası üçün çox mühüm mesaj idi.

Prezident nazirlərlə görüşündən sitat: "Bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istəyirəm. Nazir burada müşahidəçi kimi, amma eyni zamanda öz bayrağı ilə təmsil olunur. Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur və çox sevindirici haldır ki, son Zirvə görüşündə Şimali Kipr Türk Dövlətləri Təşkilatına müşahidəçi seçilmişdir. Bu münasibətlə bütün türk qardaşlarımızı ürəkdən təbrik edirəm. Bu, bir daha bizim birliyimizi göstərir, bir daha iradəmizi göstərir. Onu göstərir ki, biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq". Şimali Kiprin Prezidenti Ersin Tatar bundan sonra Azərbaycan Prezidentinə təşəkkür edib.

Yada salaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Birləşmiş Millətlər Təşkilatının yayda keçirilən toplantısındakı çıxışında bütün dünyaya "KKTC-ni mümkün qədər tez tanıyın" deyib. Prezident Əliyev bu çıxışı ilə Şimali Kiprə xüsusi jest göstərdi və onun tanınması prosesinə böyük təkan verdi.

Əvvəllər bizim Qarabağla bağlı ciddi problemimiz olduğu üçün Şimali Kiprə elə də böyük dəstək verə bilmirdik. Artıq böyük ölçüdə bu problem aradan qaldırıldığına görə Azərbaycan da Türkiyə kimi Şimali Kipr Respublikasının müstəqilliyinin tanınmasından yanadır.

Onu da xatırladaq ki, Şimali Kipr rəsmi olaraq yalnız Türkiyə tərəfindən tanınır. Bununla belə, 1992-ci ildə Naxçıvan Muxtar Respublikası ilə Şimali Kipr arasında münasibətlər yaranıb. Bakıda Şimali Kiprin rəsmi nümayəndəliyi fəaliyyət göstərir. 2022-ci ilin avqust ayında Prezident İlham Əliyev Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ərsin Tatarla görüşdü. Bu görüşdən sonra 2022-ci ilin noyabr ayında Şimali Kipr Respublikası Türk Dövlətləri Təşkilatına müşahidəçi statusunda üzv seçildi.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatına 5 üzv ölkə daxildir. Şimali Kiprlə yanaşı, Macarıstan və Türkmənistan da müşahidəçi statusunda təmsil olunub.

"Azərbaycanın Türkiyə ilə strateji müttəfiqliyinə əsasən qeyd etmək lazımdır ki, Türkiyənin Şimali Kipr Türk Respublikasına münasibəti necədirsə, ölkəmiz də bu ölkəyə o cür münasibət bəsləyir. Amma hələ ki bu məsələdə əsas söhbət Şimali Kipr Türk Respublikasının müstəqilliyinin tanınması deyil, bu ölkənin Türk dövlətləri platformasında fəaliyyət göstərməsi ilə bağlıdır".

Bu sözləri millət vəkili Fazil Mustafa mövzuya şərh bildirərkən deyib. Millət vəkili qeyd edib ki, Azərbaycan da bu məsələdə həm Türkiyənin, həm də Türk dünyasının maraqlarına uyğun addımlar atır: "Dövlət başçısı məhz bu kontekstdə məsələyə münasibət bildirib. Bu, müsbət bir addımdır. Hətta dünyada ilk təyyarəni Şimali Kipr Türk Respublikasına göndərən Azərbaycan olub. Bu da bizim Şimali Kipr məsələsində nə qədər həssas davrandığımızı göstərir. Ona görə də Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarın təşəkkür etməsi anlaşılandır. Şimali Kipr Türk Respublikasının Azərbaycan tərəfindən tanınması nə zaman zəruri olacaqsa, Azərbaycan bu istiqamətdə lazımi addımı atacaq".

Azərbaycan-Türkiyə Evinin və Azərbaycan Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı isə qeyd edib ki, son vaxtlar ciddi tarixi proseslərə şahidlik edirik: "Bunlardan biri ən yaxın tariximizdə Azərbaycan Ordusunun rəşadəti və bu ordunun Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin dövlət ağlı və cəsarəti, eyni zamanda xalqımızın iradəsi ilə qazandığımız Qarabağ Zəfəridir. Beləliklə, İlham Əliyev Qarabağ Zəfərinə imza atmaqla, həm də tarixə öz möhrünü vurdu.

Həmçinin son illərdə Türk Dövlətləri Təşkilatının yaranması, hansı ki, bu təşkilatın adı əvvəllər başqa idi və bu təşkilata Şimali Kipr Türk Cümhuriyyətinin üzv, yəni müşahidəçi seçilməsi tarixi prosesdir. Ümidvaram ki, bir zaman sonra Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına həqiqi üzv olacaq. Azərbaycanda Şimali Kipr bayrağının rəsmi məqamlara qədər gəlməsi və orada dalğalanması, cənab Prezidentimizin çox böyük ürəklə və cəsarətlə bu barədə öz fikrini bildirməsi Şimali Kipr Türk Cümhuriyyətinə verilmiş ən böyük mənəvi dəstəklərdən biridir.

Məlum olduğu kimi, Qarabağ probleminin həll olunması illərlə Azərbaycanın bəzi beynəlxalq təşkilatlar qarşısında ehtiyatlı hərəkət etməsinə səbəb olurdu. Amma böyük miqyasda Qarabağ məsələsinin öz həllini tapması və gələcəkdə də ümumiyyətlə Qarabağ məsələsinə birdəfəlik nöqtə qoyulması Ermənistanın Cənubi Qafqazda birdəfəlik işğalçı siyasətindən əl çəkməyə məcbur edilməsi prosesinə aparıb çıxarır ki, bunu da Azərbaycan xalqı, dövləti və başda cənab Prezidentimiz İlham Əliyev həyata keçirir. Halbuki bu işi BMT Təhlükəsizlik Şurası, ATƏT-in yaratdığı Minsk Qrupu, həmin qrupa daxil ölkələrin liderləri, həmsədrləri görməli idi. Amma onlar hər zaman Ermənistandan yana mövqe ortaya qoydular. Azərbaycan öz gücünə, uğrunda şəhidlər verib öz halal torpaqlarını geri aldı.

Beləliklə, ümid edirəm ki, yaxın zamanlarda daha bir sıra tarixi proseslərə şahidlik edəcəyik. Allah Azərbaycanı, Türk dünyasını qorusun. Türk Dövlətləri Təşkilatının Türk dünyasının ayrılmaz birliyi, gələcəyi üçün addımlar atacağını umuruq və inşallah ki, bu belə də olacaq".

Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl da qeyd etdi ki, Prezident İlham Əliyevin Şimali Kiprlə bağlı səsləndirdiyi açıqlama çox önəmli mesajdır: "Məlum olduğu kimi, Türkiyədə ictimaiyyət uzun müddətdir Şimali Kiprin Azərbaycan dövləti tərəfindən tanınması məsələsini mütəmadi olaraq gündəmə gətirirdi. Biz isə "Qarabağ problemi var, bu problemin həllindən sonra Şimali Kipr məsələsinə baxılacaq", - deyə mesajlar verirdik. İndi Azərbaycan, Prezidentimizin dili ilə desək, özündən əmin şəkildə bu məsələnin həlli yönünə baxır və ciddi açıqlamalar verir. Beləliklə, Türk Dövlətləri Təşkilatında Şimali Kiprin bayrağının dalğalanması ciddi addımdır. Hesab edirəm ki, bundan sonrakı addım Türk dövlətləri tərəfindən Şimali Kiprin müstəqil dövlət kimim tanınması məsələsi olacaq".

❑ Xalidə GƏRAY
"Yeni Müsavat"

Rusiyanın humanitar yükü: Laçın yolunu açmaq üçün hiylə, yoxsa...

Bakı separatçıların və havadarlarının müqavimətini qırdı; ekspertlərin fikirləri haçalanır

İki gündür keçidi lənğidilən Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən yükün Xankəndinə keçidi nəhayət ki, 12 sentyabrda baş tutdu. Məlumata görə, Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən ərzaq və qeyri-ərzaq məhsulları Xankəndinə aparılıb.

Rusiya hərbi qüvvələrinin aksiya keçirən separatçılara güc tətbiq etdiyi barədə də məlumat var. Ermənistan mediası separatçıların dediklərini tirajlayıb. Jamaz.info-nun məlumatına görə, Ağdam-Əsgəran yolunu bağlayan bir qrup erməni yüklərin Xankəndinə çatdırılmasına mane olmağa çalışıb. Belə ki, onlar "Tank" abidəsi deyilən ərazidə dayanaraq, Rusiya Qırmızı Xaç Cəmiyyətinə məxsus maşınların önünü kəsiblər. Lakin əraziyə cəlb olunan rus hərbçiləri və separatçıların "polis"ləri toplaşan adamlara zor tətbiq etmək məcburiyyətində qalıb. Qarabağda Azərbaycana qarşı döyüşmüş "Vahan" dəstəsinin komandiri, habelə Ağdam-Əsgəran yolunu bağlayan dəstə başçılarından biri Artur Vardanyan isə bunları deyib: "Gecə bir avtobus xüsusi təyinatlı və polis (istisna deyil ki, separatçı rejimə məxsus-red.) Ağdam-Əsgəran yoluna, bizim dayandığımız yerə gəldilər. Hamısı maskalı idi. Bizə dedilər ki, ya yolu açacaqsız, ya da biz zor tətbiq edəcəyik. Sonra ruslar da gəldilər. Bir xeyli danışdıq, lakin onları razı sala bilmədik. Sonra bizim hamımızı oradan zor gücünə çıxardılar. Həmin maskalılar indi də Ağdam-Xankəndi yolundadırlar. Heç kimə yola yaxınlaşmağa imkan vermilər". Bu, artıq separatçıların Azərbaycanın iradəsi qarşısında boyun əyməsidir...

Rusiya TIR-ında qida dəstlərinin olduğu, onların sayının 1000-ə çatdığı bildirilir. Bir dəstin 11,4 kq olduğu da vurğulanır. Burada günəbaxan yağının, dənəvər şəkərin, buğda ununun, makaronun, qarabaşaq yarmasının, darının, yulafın və digər qida məhsullarının olduğu qeyd edilib. Həmçinin 270 ədəd yataq dəstinin gətirildiyi, o cümlədən gigiyena dəstlərinin - 200 ədəd (diş fırçası, sabun, termometr və s.) və uşaq dəstlərinin (uşaq jeli, vitamin pastilləri, diş fırçası, uşaq püresi, körpə balıq yağı, toz) gətirildiyi bildirilir.

"Ağdam yolundan Rusiya Qızıl Xaç Komitəsinin istifadəsinə icazə verilməsi barədə verilən qərar, açığını desək, heç də bizim iradəmizin sonadək gözlənilməsi deyil. Ağdam-Xankəndi yolundan ilk olaraq Azərbaycan Qızıl Xaç Komitəsinin yardımı keçməlidir, sonra başqa ölkələrin. Rusiya yükünün və perspektiv xarici yüklərin keçməsi "inteqrasiya" deyil, Kremlin "xilasedici" obrazının süni şəkildə təqdimidir".

Bu fikirləri yazan **politoloq İlham İsmayıl** belə hesab edir ki, ermənilər paralel olaraq "Laçın dəhlizi"ndən humanitar yüklərin keçirilməsi tələb edəcəklər. Əgər bu şərtlərlə razılaşma varsa, bu, bizim maraqlara uyğun deyil. Məlumdur ki, Azərbaycan rəsmən bəyan edib ki, Ağdam-Xankəndi yolu açıldıqdan 24 saat sonra Laçın-Xankəndi yolunun (Laçın yolu) da açılması mümkün olacaq. Amma Bakı onu da bəyan edib ki, Rusiya yüklərinin Qarabağa göndərilməsi Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının eyni vaxtda açılmasına dair təklif olunan sazişlərlə bağlı deyil. Qondarma rejimin Rusiya Qızıl Xaç Komitəsi tərəfindən göndərilən humanitar yardımı qəbul etməyə hazır olduğu haqda bəyanatından sonrakı iki gün ərzində də ermənilər yolu açmadılar. Ancaq sonda müqavimətləri qırıldı.

Rusiyanın humanitar yükü ilə bağlı tam fərqli mövqelər də var. Məsələn, jurnalist Taleh Şahsuvarlı hesab edir ki, Rusiyanın humanitar yükünün mənzil başına çatması Ermənistan, Fransa və digər "humanitar fəlakət" şousu düzəldənlərin apardığı kampaniyanın növbəti dəfə iflası olacaq. "BQXC arxa plana keçdi, Xankəndidə humanitar fəaliyyətin mərkəzində Azərbaycan Qızıl Aypara Cəmiyyəti dayanır; yardım "Artsax xalqı"na deyil, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərə edilir; yükün həcminin cəmi 1 TIR olması Xankəndi və çevrəsində humanitar fəlakət olmadığını təsdiq edir".



Yeri gəlmişkən, "Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel bildirib ki, "Laçın dəhlizi" indi açılmalıdır, Ağdam kimi digər yollar isə alternativ kimi deyil, ümumi razılaşmanın bir hissəsi kimi açıla bilər". Borel özünün X səhifəsində (keçmiş Twitter) Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığının təfərrüatları barədə belə yazıb.

Amma separatçıların mövqeyindən çıxış edən Borelin nə deməsindən asılı olmayaraq, Azərbaycanın iradəsinə uyğun olaraq ilk TIR Ağdam yolundan keçdi. Düzdür, artıq iki həftədir 40 ton un yüklənmiş Azərbaycan maşınları Əsgəran istiqamətində gözləyir. Rusiyanın müvəqqəti təsir zonasında olan separatçıların Azərbaycan TIR-larına qarşı müqaviməti davam edir. Lakin bunu Rusiyanın oyunu hesab edənlər də var.

Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Qarabağda yaşayan əhali üçün hər hansı yardım etmək istəyən heç bir dövlətə maneə yaratmayıb: "Azərbaycanın ərazi bütövlüyünə və suveren hüquqlarına hörmət edən, Azərbaycanın dövlət sərhədini Azərbaycan qanunvericiliyinə uyğun keçmək istəyən heç bir dövlət imtina almayıb. Fransanın "humanitar missiyası" ona görə uğursuzluğa düçar oldu ki, yükləri Azərbaycanın ərazi bütövlüyünə və suveren hüquqlarına məhəl qoymadan həyata keçirmək istəyirdi. Əslində onlara yükləri Xankəndinə çatdırmaq yox, siyasi şou lazım idi. Rusiya Federasiyası, daha doğrusu, Rusiyada fəaliyyət göstərən Beynəlxalq Qızıl Xaç Cəmiyyəti yükləri Azərbaycan tərəfi ilə razılaşdırmaqla və Azərbaycanın icazə verdiyi yolla aparmaq qərarına gəldi. Azərbaycan da buna razılıq verib. İndi Xankəndidəki qanunsuz banda o yükləri qəbul etsə də, Azərbaycanın xeyrindədir, etməsə də". **S.Məmmədovun sözlərinə görə, bu baxımdan Ermənistan və Xankəndidəki oyuncaq idarəetmə qurumu çıxılmaz vəziyyətdə qalıb:** "Yüklərin Xankəndinə çatdırılması Rusiyanın da xeyrinədir. Yeri gəlmişkən, Rusiya üçün bu, ilk hal deyil. Rusiya daha əvvəl məhz bu məqsədə hesablanıb: "Yüklər Xankəndidə qəbul olunarsa, bu, onu göstərəcək ki, Rusiyanın tərəflərə təsir imkanı Avropaya və ABŞ-a nisbətdə daha yüksəkdir. Halbuki Azərbaycan dövləti bu yoldan istifadə etmək istəyən digər dövlətlərə də şərait yaratmağa hazır idi. Fransa da bir qədər ağıllı siyasət yürüdə bilsəydi, elə bu yoldan istifadə etməklə yüklərini Xankəndinə aparardı".

S.Məmmədov əminliklə vurğuladı ki, bütün hallarda yaradılan bu süni qarşıdurmada Azərbaycan qalıb oldu: "Azərbaycan öz iradəsini növbəti dəfə ortaya qoya bildi, bir daha sübut etdi ki, Qarabağ məsələsində hər hansı güzəşt yoxdur və olmayacaq. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yüklərinin qəbul olunmaması da erməniçiliyin irqçi siyasətini ortaya qoydu bir daha. "Ac" erməni əhali üçün Azərbaycanın təklif etdiyi yardımın qəbul olunmaması həm də ərazidə hər hansı humanitar problemin olmadığını göstərdi. Doğrudur, erməniçiliyin və onların havadarlarının təbliğat maşını hələ də dünya ictimaiyyətini aldatmaqda davam edir, amma həqiqəti bilənlərin sayı artmaqdadır". **Paralel olaraq Laçın yolunun açılması məsələsinə gəldikdə, STM icraçı direktoru bildirdi ki, onsuz da Azərbaycan bu yoldan humanitar məqsədlər və əhalinin gediş-gəlişi üçün istifadəni hər zaman mümkün hesab edib:** "Amma ölkəyə girişə nəzarət etməklə. Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yaradılıb və istənilən halda bu yoldan istifadə Azərbaycanın nəzarəti altında olacaq".

Siyasi şərhçi Azər Həsrətin sözlərinə görə, Rusiya Qırmızı Xaçına mənsub yük maşınının Ağdam-Xankəndi yolu ilə hərəkət etməsi əlamətdar hadisədir: "Artıq uzun illərdən sonra bu yolun yenidən işlək hala gəlməsi üçün şərait yaranıb. Lakin nəzərə alsaq ki, Rusiyaya aid humanitar yük bu yolla hərəkət etsə də, Azərbaycanın Qarabağdakı ermənilərə göndərdiyi yük hələ də o yoldan istifadə edə bilmir, onda məsələ tam həll edilməmiş sayılır. Yəni Rusiyaya aid bir yük maşınının oradan keçməsi heç də o demək deyil ki, bölücü ermənilər və onların havadarları Ağdam-Xankəndi yolunu tam olaraq açıb. O baxımdan biz düşünürük ki, ilk addım olaraq bu hadisə uğurlu sayılsa da, məsələ tam həllini tapmayıb. Elə ona görə də hələlik yolların tam açılmasından danışa bilmirik". **A.Həsrət bu məntiqdən çıxış edərək əlavə edib ki, yəni Laçın yolu ilə bağlı durum da olduğu kimi davam edəcək:** "Ermənilər - əslində elə Rusiya sülhməramlıları - Ağdam-Xankəndi yolunu açmadıqca, Laçın yolu da sərt rejimini qorumalı olacaq. Bir məqamı da xatırladaq ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla 44 günlük müharibə bitdikdən sonra Azərbaycan Rusiya sülhməramlılarına Ağdam-Xankəndi yolundan istifadə üçün şərait yaratmışdı. Ruslar təyyarə ilə Gəncəyə gəlir, oradan da quru yolla Xankəndinə gedirdilər. Amma sonradan özlərinə bəlli olan səbəblərdən bu fikirdən daşınıb, yenə də İrəvan-Xankəndi yolundan istifadəyə davam etdilər. Bu isə bir daha sübut edir ki, Ağdam-Xankəndi yolunu əslində ruslar bağlı tutur, onların girovu olan ermənilər deyil..."

Təbii ki, mövzu ilə bağlı fərqli yanaşmalar var və olacaq. Ancaq istənilən halda, növbəti dəfə erməni separatçıların və onlara havadarlıq edənlərin müqaviməti qırıldı. Proseslərin bundan sonra necə cərəyan edəcəyi maraqlıdır. Təbii ki, Azərbaycan dövlətinin qırmızı xətti var və milli məsələlərdə hər hansı güzəşt ola bilməz. Deməli, Laçın yolu ilə bağlı qəbul olunmuş qərarda prinsipial mövqe ortaya qoyulub. Ağdam-Xankəndi yolu isə tam şəkildə açılmalıdır. Yeri gəlmişkən, Azərbaycan dövləti 26 km-lik Ağdam-Xankəndi yolunun təmirinə, həmçinin işıqlandırılmasına başlayıb.

Qarabağ ermənilər seçim etsinlər: işıq gələn tərəfə getməli, yoxsa...

❑ **E.PAŞASOY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Avropa Parlamenti anti-Azərbaycan qətnamə hazırlığında

"Qubad İbadoğlunun işi" bu gün qurumda müzakirə ediləcək; deputatlardan sərt reaksiyalar - Novella Cəfəroğlu isə həbsi düzgün saymır

Azərbaycana qarşı daima qərəzli mövqeyi ilə seçilən Avropa Parlamentinin əlinə yeni "fürsət" düşüb. Məlum olub ki, sentyabrın 13-də "Qubad İbadoğlunun işi" Avropa Parlamentinin insan hüquqları üzrə təcili debatının gündəliyinə daxil edilib. Müzakirələr sentyabrın 13-də keçiriləcək, ertəsi gün isə təklif olunan qərarla bağlı səsvermə keçiriləcək. Xəbəri "Turan" Avropa Parlamentinin saytına istinadən yazıb.



Müzakirələrdə iştirak edəcək Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun direktoru Emin Hüseynovun sözlərinə görə, debat zamanı deputatlar İbadoğlunun işi ilə bağlı fikirlərini bildirəcəklər və Avropa Komissarlarından birinə siyasətçinin hüquqlarının təmin edilməsi ilə bağlı görülən tədbirlər haqqında suallar verəcəklər.

E.Hüseynovun "Turan"a verdiyi məlumata görə, qətnamə səslərin çoxluğunu qazansa, debat İbadoğlunun işi üzrə qətnamənin qəbulu ilə başa çata bilər. Qətnamədə İbadoğlunu azad etmək çağırışının yer alacağı və Avropa Komissiyasına siyasətçi və alimin cinayət təqibinə xitam verilməsi üçün Bakı ilə fəal dialoq aparmaq tövsiyələrinin irəli sürüləcəyi gözlənilir.

Nərimanov Rayon Məhkəməsi Qubad İbadoğlunu saxta pul hazırlamaq ittihamı ilə 3 ay 26 gün müddətinə həbs edib. Azərbaycan DİN İbadoğlunun 2016-cı ildə Türkiyədə dövlət çevrilişi cəhdində ittiham olunan Fətullah Gülənin tərəfdarları ilə əlaqəsi olduğunu bildirib. Avqustun 25-də ona qarşı "dini-ekstremist materiallar hazırlama, saxlama və ya yayma" ittihamı irəli sürülüb. Qubad İbadoğlu ittihamları rədd edir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov hesab edir ki, "Qubad İbadoğlunun işi"nin Avropa Parlamentinin gündəliyinə daxil edilməsi bu təşkilatın növbəti riyakarlığıdır: "Hər kəs çox yaxşı başa düşür ki, əslində nə Avroparlamenti, nə də onun məlum məzmunda "fəaliyyətinin" təbliğatını aparan digər təlxəklər yığınını İbadoğlu maraqlandırmır. Azərbaycana qarşı davamlı şəkildə qərəzli mövqe tutmaqda olan Avropa Parlamenti "İbadoğlu" şousuna anti-Azərbaycan fəaliyyətində növbəti fürsət kimi yanaşır. Bu qərəzin və bütövlükdə proseslərin çox sadə səbəbi var. Bu gün Azərbaycan Respublikasının özünün prioritetlərinə və milli maraqlarına cavab verməyən hər hansı prosesə qoşulmaması, müstəqil davranması neoimperialist güclərin, o cümlədən korrupsiya yuvası olan Avroparlamentin niyyətləri ilə üst-üstə düşmür. Ölkəmizin Vətən müharibəsindən sonra isə özünü həm də ciddi hərbi-siyasi güc kimi təsdiq etməsi adətən münaqişəli vəziyyətlərdən qidalanan korrupsioner Avroparlamentin qazanc və hərəkət imkanını məhdudlaşdırıb. Nəticədə istər Avroparlament, istərsə də eyni mənbədən qidalanan "Amnesty International", "Human Rights Watch" və "Freedom House" kimi təşkilatlar üçün ayrı-ayrı cinayət təqibləri üzrə proseslərin siyasiləşdirilməsi prioritetə çevrilir. Özü çirkab və cinayətkarlıq yuvasına dönməsinə baxmayaraq hələ də "demokratiya", "humanizm", "insan haqları" idealları ilə pərdələnən Avropa Parlamenti üçün bu mənada İbadoğlu məsələsi "göydən-düşmə" imkan oldu və təşkilatın bu fürsəti qaçırmayacağı aydın idi. Əgər bu təsisatı həqiqətən insan haqları maraqlandırsaydı, ilk növbədə 30 il ərzində təməl hüquqlarından məhrum olan 1 milyondan artıq Qarabağ və Şərqi Zəngəzur sakini, habelə Qərbi Azərbaycandan didərgin salınan 300 mindən artıq soydaşımızın haqları barədə danışardı.

Aydındır ki, Avropa Parlamenti yerli agentləri vasitəsilə Azərbaycanda cinayət mühakimə icraatı üzərində nəzarət mexanizmi qurmaq üçün konkret əməllər üzrə təqsirləndirilən Qubad İbadoğlunun cinayət təqibini süni surətdə siyasiləşdirmək istəyir. Amma bu korrupsionerlər birmənalı şəkildə anlamalıdırlar ki, onların Azərbaycanda qanunsuz təsiri istisna edən şəraitdə, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında həyata keçirilən cinayət prosesini siyasiləşdirmək cəhdləri indidən iflasa məhkumdur və bu saxtakarlar hər addımda özlərini daha çox ifşa edirlər".

Komitənin digər üzvü, Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev E.Hüseynov barədə sərt danışdı: "Avropa Parlamentinin İnsan hüquqları üzrə təcili debatında nəzərdə tutulan mövzu, yəni "Qubad İbadoğlunun "işi" əslində Avropa təsisatlarının bir çoxunun reallıqdan, hüquq anlayışından və sadə etiket qaydalarından nə qədər uzaq olduğunu göstərir. O mənada ki, məsələni indiki mərhələdə mövzu predmetinə çevirməyin özü absurddur. Niyə? Çünki Qubad İbadoğlunun işi ilə bağlı hələ heç bir məhkəmə qərarı yoxdur, istintaq gedir, dəqiqləşdirmələr aparılır, nəticə elan olunmayıb. Yaxşı bəs belə olan halda, görəsən, Avropa Parlamenti niyə tələm-tələsik məsələni siyasiləşdirməyə, ona başqa don geyindirməyə çalışır? Maraqlıdır, deyilmi?

İkinci bir məsələ. Görün debat iştirakçılarından biri kim olacaq? - Emin Hüseynov. O adam ki, Azərbaycan vətəndaşlığından məhrum edilib. Həm də yaramaz əməllərinə və törətdiyi cinayətlərə görə! Belələrinin sözü, təşviqatı, donosu ilə müzakirəyə mövzumu çıxardarlar? Avropa Parlamenti öz prinsiplərini, öz dəyərlərini bu qədərmi ucuz tutur?

Demək, sizə adi bir fakt deyim. Mən Avropa Şurasında təmsil olunan nümayəndə heyətinin üzvü ikən həmin Eminlə çox üzbəüz gəlmişəm. Onları Plenar iclas zalına buraxmırdılar. Çünki həmin zala yalnız xüsusi səlahiyyətlilər keçə bilər. Ya da səlahiyyətlilərin müşayiəti ilə kimsə. Və bu Emin bütün günü ya şuranın kuluarında, ya da bufetində özünə erməni sirdaş, donos ötürməyə adam, Azərbaycana qarşı müzakirələrdə iştirak etmək üçün parlamentari axtarırdı. İndi o boyda Avropa Parlamenti belələrinin ümidinəmi qaldı? Avropa Parlamentinin isə əgər həqiqətən nəyisə dəqiqləşdirmək niyyəti, sualı vardısa, həmin sualları Azərbaycanın rəsmi qurumlarına ünvanlaya, məlumatı birinci mənbədən ala, debat və s. müzakirə formatı ilə bağlı qərarları da ondan sonra verə bilərdi. Amma görünən budur ki, Avropa Parlamenti hər şeyi tərsinə edir".

Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə dedi ki, istənilən halda Qubad İbadoğlunun indiki vaxtda həbsini düzgün saymır: "İndiki vaxtda təbii ki, belə qətnamələrin qəbulu bizə lazım deyil. Bir tərəfdə Qubad, digər tərəfdə Bəxtiyar həbsdədir. Onların həbsləri də bizə lazım deyildi. Onlar Avropa, Amerikaya bağlı şəxslər idi, onlarla işləyirdilər. Belə şəxslərin həbsi deyirəm ki, indiki vaxtda bizə sadəcə problem yarada bilər. Qətnamə qəbul edilərsə, ermənilər hay-həşir salacaqlar ki, bəs orada insan haqları pozulur, biz onlarla birlikdə yaşaya bilmərik, necə yaşayaq. Bu baxımdan, bu həbsləri doğru hesab etmirəm. Biz öncəliklə dövlətçiliyimizi qorumalıyıq. İnsiniz, amma dövlətçiliyimizə ziyan vuracaq fəaliyyət göstərmək olmaz. Qubad İbadoğlu ilə bağlı hələ hər şey tam məlum deyil. Məhkəməsi başlasın, ondan sonra da çox şey məlum olacaq. Bir daha deyirəm ki, Qubadı tutmaq yanlış idi. O, zatən hökumətlə hər zaman işləyib. Danışıqlar getdi, ona partiya qurdular. Onunla danışıb, Müsavatı böldülər. Bunu hər kəs bilir. Bir sözlə, bunların öz adamı idi. Çağırıb danışmaq olardı. Gərək həbs etməyəydilər".

diyə qədər deyim ki, bu tipli çoxlu sayda qətnamələr qəbul olunub. Amma Azərbaycan hökuməti belə qətnamələrlə kimisə indiyə qədər azad etməyib. Qubadı da, Bəxtiyarı da azad edəcəklər. Amma Azərbaycan hökuməti nə zaman istəsə, bunu edəcək. Xankəndidə ermənilər "acından ölürük" deyə car çəkirlər. Amma onlara beynəlxalq aləmdən gələn dəstəyi görürük, ərzaq daşınır. Biz rəqiblərə heç cür fürsət verməməliyik. Tutaq ki, qətnamə qəbul olundu. Axı dövlətçiliyimizə söz gəlir. Hökuməti tənqid edə bilərdu. Axı dövlətçiliyimizə söz gəlir. Hökuməti tənqid edə bilər-

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"

Nəcməddin Sadıkova görə həbs edilən polkovnik məhkəmə qarşısında

Vəkil: "İttihamda göstərilib ki, keçmiş Baş Qərargah rəisinin qanunsuz tapşırıqlarını yerinə yetirib, amma onu nə istintaqa cəlb edilib, nə də..."



Bakı Hərbi Məhkəməsində hakim Camal Ramazanovun sədrliyi ilə Müdafiə Nazirliyinin polkovniki Fikrət Mirzəyevin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası davam etdirilib. Fikrət Mirzəyev külli miqdarda mənimsəmədə təqsirləndirilir. İclasda müttəhimin anket məlumatları dəqiqləşdirilib.

Bundan sonra onun vəkilinin vəsatətinə baxılıb. Vəkil Fikrət Mirzəyevin ev dustaqlığına buraxılması ilə bağlı vəsatət qaldırıb. Məhkəmə vəsatəti təmin etməyib. Məhkəmənin baxış iclası sentyabrın 25-nə təyin edilib.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının Müdafiə Nazirliyində keçirdiyi əməliyyat zamanı Fikrət Mirzəyev də daxil olmaqla, bir neçə vəzifəli şəxs həbs olunub. Tutulanlardan Fikrət Mirzəyev və Məlikməmməd Qurbanova qarşı Cinayət Məcəlləsinin 179.4-cü - xüsusilə külli miqdarda mənimsəmə maddəsi ilə ittiham irəli sürülüb. Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Mahir Şirvanova isə 179.4, 341.2.1 - bir qrup şəxs tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma və digər maddələr ilə ittiham irəli sürülüb. Polkovnik Fikrət Mirzəyev nazirliyin Mənzil İstismar İdarəsinin, polkovnik Mahir Şirvanov Satınalmalar və Təchizat İdarəsinin, polkovnik Məlikməmməd Qurbanov isə Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi olub. Hər 3 polkovnik 2022-ci ilin əvvəlində həbs ediliblər. Polkovnik Fikrət Mirzəyev 2020-ci il iyun ayında MN-dəki vəzifəsindən çıxarılıb. Məlikməmməd Qurbanov 27.08.2019-cu il tarixində xidmət keçmənin son yaş həddi ilə əlaqədar olaraq ehtiyata buraxılıb. Mahir Şirvanov polkovnik Məlikməmməd Qurbanovdan əvvəl bu vəzifədə çalışıb.

Bakı Hərbi Məhkəməsinə göndərilən cinayət işinin materiallarına görə təqsirləndirilən polkovniklər Müdafiə Nazirliyinin sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkovun qanunsuz tapşırıqlarını yerinə yetiriblər.

Məhkəmənin hazırlıq iclasında vəkillərdən biri də bu məsələyə toxunub: "İttihamda göstərilib ki, hüquqlarını müdafiə etdiyim şəxs digərləri ilə əlbir olub, keçmiş Baş Qərargah rəisinin qanunsuz tapşırıqlarını yerinə yetirib. Amma həmin şəxs nə istintaqa cəlb edilib, nə də ifadəsi alınıb.."

Hakim isə bu məsələyə münasibət bildirməyib. Deyib ki, bu, məhkəmənin hazırlıq iclasında baxılıb münasibət bildirilməsi məsələ deyil.

❑ **E.MƏMMƏDƏLIYEV,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023



Prezident Rəqabət Məcəlləsini parlamentə göndərdi - bu dəfə nə olacaq?

Ekspertlər ümidli danışırlar

Azərbaycanda uzun illərdir gözlənilən bir addım atılıb: Rəqabət Məcəlləsinin layihəsi Prezident İlham Əliyev tərəfindən Milli Məclisə göndərilib və parlamentin İnternet saytında yerləşdirilib. Milli Məclisin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, Rəqabət Məcəlləsinin layihəsi 12 fəsil 83 maddədən ibarətdir.

Məcəllənin qəbulu ilə "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunları və digər hüquqi aktlar yeni, vahid hüquqi sənəddə birləşdirilmiş olacaq.

Məlumatda qeyd olunur ki, məcəllə hazırlanarkən müxtəlif dövlət orqanları, habelə biznes assosiasiyaları ilə geniş müzakirələr aparılıb, onların rəy və təklifləri nəzərə alınıb. Layihə Türkiyə, ABŞ, Avropa İttifaqı, Almaniya, Avstriya, Latviya, Litva, Macarıstan və Çexiya qanunvericilikləri başda olmaqla, qabaqcıl beynəlxalq təcrübə, həmçinin yerli bazarın xüsusiyyətləri nəzərə alınmaqla ərsəyə gətirilib.

Qeyd edək ki, Azərbaycanda Rəqabət Məcəlləsi ölkə müstəqillik əldə ediləndən bəri ən çox gözlənilən sənəddir. 2006-cı ildə Milli Məclisdə məcəllə layihəsi hazırlanaraq birinci və ikinci oxunuşda müzakirə olunub, lakin ondan sonra bir daha müzakirəyə çıxarılmayıb. Amma dəfələrlə məcəllənin hazırlanmasını nəzərdə tutan sərəncam və tapşırıqlar verilib. Hazırda sahibkarlıq sahəsində rəqabət mühiti 1995-ci il tarixli "Haqsız Rəqabət haqqında" və 1993-cü ildə qəbul olunan "Antiinhisar fəaliyyəti haqqında" qanunlarla tənzimlənir.

Hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, Rəqabət Məcəlləsinin layihəsinin timsalında Azərbaycanda ilk dəfədir Milli Məclisə göndərilən layihə komitə iclasından keçməmiş sayta yerləşdirilir: "Düzünü deyim, bu, görünməyən haldır ki, plenar iclas başlanmamış layihəni ictimaiyyətə açıqlayıblar. Mən bununla bağlı spiker Sahibə Qafarovaya da məktubla müraciət etmişdim ki, layihələr Milli Məclisə daxil olan kimi sayta yerləşdirilməlidir".

Hüquqşünasın fikrincə, bu layihənin taleyinin birinci kimi olub-olmayacağını söyləmək mümkün deyil: "Açığını deyim, hər şey ola bilər. Əgər məcəllə böyük ölçüdə Azərbaycanda ədalətli rəqabət mühitini təmin edəcək səviyyədədirsə, onun qəbuluna qarşı müqavimətin olması gözləniləndir. Sənəd böyükdür, onunla hərtərəfli tanış olduqdan sonra deyə biləcəm ki, nə qədər keyfiyyətlidir, icrasından nələr əldə etmək mümkündür".

İqtisadçı-ekspert Rəşad Həsənov bu dəfə hökumətin Rəqabət Məcəlləsini qəbul etməkdə qərarlı göründüyü fikrindədir: "Son nəticə ilə bağlı proqnoz verməkdə çətinlik çəkirəm. Amma bu dəfə hökumətin bu sənədi icraya yönəltmək niyyətini hiss edirəm. Digər tərəfdən, düşünmürəm ki, Rəqabət Məcəlləsinin qəbulu ilə Azərbaycan iqtisadiyyatında azad rəqabətli mühit dərhal bərqərar olacaq. Daha doğrusu, sağlam rəqabətin formalaşması yalnız bu sənəddən asılıdır. Çünki təcrübə göstərir ki, ən təkmil qanunlar belə Azərbaycanda reallığı dəyişməyə, sağlam münasibətləri təmin etməyə imkan vermir. Bu baxımdan, əsas məsələ hakimiyyətin istəyidir, siyasi iradənin olmasıdır. İndilik belə siyasi iradənin olduğu qənaətindəyəm, ardınca nə olacaqsa, görəcvəyik".

Onu da qeyd edək ki, Azərbaycanda sağlam rəqabət mühitinin olmaması, yüksək inhisarlaşma ölkə iqtisadiyyatına xarici investisiyaların cəlbi yolunda ən böyük maneələrdən biridir. Azərbaycan Mərkəzi Bankının rəsmi məlumatına əsasən bu ilin ikinci yarısında iqtisadiyyatın qeyri-neft sektoruna birbaşa xarici investisiyaların cəlbində 35 faiz azalma qeydə alınıb. **R.Həsənov deyir ki, işğaldan azad olunan ərazilərin bərpası Azərbaycanda investisiya ehtiyaclarını dəfələrlə artırıb**: "Postpandemiya dövründə iqtisadi bərpanın təmini üçün bütün dünyada investisiyalara ehtiyac artıb. Hazırda bir növ, investisiyalar uğrunda mübarizə gedir: hər bir ölkə investorları cəlb etmək üçün daha əlverişli şərtlər təklif etməyə çalışır. Bu baxımdan, Azərbaycanın öz şərtlərini mümkün qədər daha çox əlverişli hala gətirməsi vacibdir. Buna yalnız kosmetik dəyişikliklər, imitasiya xarakterli addımlarla nail olmaq mümkün deyil. Hökumət bütün istiqamətlərdə ölkə iqtisadiyyatının liberallaşması, ölkənin iqtisadi inteqrasiyasını təmin etmək üçün bütün bağlı qapıları açmalıdır".

Milli Məclisin saytında yerləşdirilən layihədə qeyd olunur ki, məcəllə Azərbaycanda azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini, rəqabət sahəsində tənzimlənməni, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir, sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır.

Məcəlləyə əsasən rəqabət qanunvericiliyinin pozulması haqqında işlərə baxılması və qanun pozuntularının aradan qaldırılması məqsədilə rəqabət orqanı tərəfindən rəqabət komissiyası yaradılır. Rəqabət komissiyasının yaradılması, tərkibi, rəqabət komissiyası tərəfindən işlərə baxılması və qərarların qəbul edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunur.

Layihədə nəzərdə tutulduğuna əsasən bir təsərrüfat subyekti 50 faiz və daha çox bazar payına malik olduqda, müvafiq bazarda hərəkətləri birbaşa və ya dolayı yolla birgə xarakter daşıyan, hər biri 10 faizdən çox bazar payına malik olan 2 (iki) və daha çox təsərrüfat subyekti (ən çox paya malik olanlar əsas götürülməklə) iki və ya üç təsərrüfat subyektinin birgə bazar payı 50 faizdən çox olduqda; dörd və ya beş təsərrüfat subyektinin birgə bazar payı 70 faizdən çox olduqda hökmran mövqe tutmuş hesab edilir.

Maliyyə institutlarının hökmran mövqeyinin müəyyən edilməsi şərtləri (bazar payının hədləri və müəyyən edilməsi meyarları) rəqabət orqanı ilə razılaşdırmaqla Mərkəzi Bankın təklifi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

Bundan əlavə, müvafiq bazarda 50 faizdən az, lakin 35 faizdən çox bazar payına malik olan təsərrüfat subyekti müvafiq bazara təsir imkanına malik olduqda hökmran mövqe tutmuş hesab edilir. Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Məcəlləyə görə, haqsız rəqabətin formaları bunlardır: müştərilərə qarşı aqressiv davranış; rəqib təsərrüfat subyektinin nüfuzdan salınması; rəqibin təsərrüfat fəaliyyətinin təqlidi; müştərilərin çaşdırılması və aldadılması; kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması.

Dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, habelə tənzimləyici qurumların normativ hüquqi aktlarla müəyyən edilmiş əsaslar olmadan rəqabətin məhdudlaşdırılmasına səbəb olan (və ya səbəb ola bilən), eləcə də təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinə toxunan (və ya toxuna bilən) hərəkətləri (hərəkətsizliyi) qadağan edilir. Bu hərəkət və hərəkətsizliklərə dövlət və bələdiyyə mülkiyyətində olmayan təsərrüfat subyektlərinə məhsulun istehsalı və satışı üzrə, həmçinin müəyyən kateqoriya müştərilərin üstünlük verilməklə təchiz edilməsi və ya bəzi müqavilələrin bağlanmasına üstünlük verilməsi üzrə birbaşa və dolayı göstərişlərin və (və ya) məcburi dövlət sifarişlərinin verilməsi, eyni zamanda müştərilərə müəyyən kateqoriya məhsulun xüsusi bazar subyektlərindən alınmasına dair məhdudiyyətlərin qoyulması; təsərrüfat subyektlərinin satdığı məhsulun qiymətləri üzərində nəzarətin həyata keçirilməsi; öz struktur bölmələrinə və tabeliyində olan qurumlara rəqabətin məhdudlaşdırılmasına gətirib çıxara bilən səlahiyyətlərin verilməsi; fəaliyyəti rəqabətin məhdudlaşdırılmasına səbəb ola bilən təsərrüfat subyektlərinin və idarəetmə orqanlarının yaradılması; Azərbaycan ərazisində məhsulun hərəkətinə qadağaların (məhdudiyyətlərin) tətbiqi, kapital qoyuluşlarına, habelə iqtisadiyyatın müxtəlif sahələri arasında maliyyə vəsaitinin sərbəst hərəkətinə maneələrin yaradılması; eyni sahədə fəaliyyət göstərən ayrı-ayrı təsərrüfat subyektlərinə rəqabətdə üstünlük verə biləcək güzəştli kreditlərin, subsidiyaların, vergi və digər ödənişlər üzrə güzəşt və azadolmaların verilməsi, dövlət və bələdiyyə mülkiyyətində olan vəsaitdən güzəştli şərtlərlə istifadə etmək imkanının yaradılması; müəyyən məhsulun alışı, satışı, istehsalı, idxalı və ixracının, müəyyən sahibkarlıq fəaliyyət növü ilə məşğul olmanın, habelə yeni müəssisələrin, o cümlədən maliyyə institutlarının yaradılmasının qadağan edilməsi və ya məhdudlaşdırılması, eləcə də yeni texnologiyaların işlənilib hazırlanması ilə bağlı maneələrin yaradılması; təsərrüfat subyektlərinin müstəqilliyinin, o cümlədən xarici iqtisadi fəaliyyətinin məhdudlaşdırılması; rəqabətin məhdudlaşdırılmasına yönəldiyi və müştərilərin mənafeyinə toxunduğu hallarda qiymətlərin yüksəldilməsi, aşağı salınması və ya bir səviyyədə saxlanılması məqsədilə məhsul, o cümlədən maliyyə xidmətləri bazarlarına əsassız müdaxilə edilməsi; rəqabəti məhdudlaşdırmaq məqsədilə təsərrüfat subyektlərinə dempinqin tətbiqi üçün şərait yaradılması; tələb və təklif sahəsində informasiya resursları üzərinə nəzarətin qoyulması və ya bəzi təsərrüfat subyektlərinə belə informasiya resurslarına üstün çıxış imkanının yaradılması; dövlət satınalmaları sahəsində normativ hüquqi aktlara zidd olaraq müəyyən təsərrüfat subyekti üçün üstün şərait yaradılması; yeni təsərrüfat subyektlərinin bazara daxil olmasına maneələrin yaradılması; təsərrüfat subyektlərinin maddi ehtiyatlarla təchiz olunması üçün mərkəzləşdirilmiş qaydada təchizat kanallarının yaradılması; qarşılıqlı əvəz oluna bilən məhsulların istehsalına, idxalına və ixracına nəzarətin həyata keçirilməsi; az həcmdə gəlir əldə edən və ya zərərlə işləyən təsərrüfat subyektlərinə ictimai mənafe ilə bağlı olmayan, rəqabəti məhdudlaşdıran (məhdudlaşdıra bilən) güzəştlərin və əlverişli şərait yaradan üstünlüklərin verilməsi, yardım göstərilməsi; müştərilərin sərbəst seçim hüququnu məhdudlaşdıran (məhdudlaşdıra bilən) qərarların qəbul edilməsi; bələdiyyələrin öz səlahiyyətlərindən, bələdiyyə mülkiyyətində olan obyektlərin, yerli büdcənin, həmçinin büdcədənkənar fondların vəsaitindən ayrı-ayrı təsərrüfat subyektlərinə üstünlük yaratmaq məqsədilə istifadə etməsi; rəqabətin məhdudlaşdırılmasına səbəb olan (ola bilən) digər qanunsuz hərəkətlər (hərəkətsizlik) aiddir.

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Böyük Qayıdış

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Qarabağa "Böyük Qayıdış" planı uğurla həyata keçirilir. Son olaraq, sentyabrın 11-də Füzuli şəhərinə növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu Park-3" yaşayış kompleksindən yola salınıb.

Füzuli şəhərinə köçürülən ailələrə mənzillərin açarlarını Qarabağ İqtisadi Rayonuna daxil olan İşğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov təqdim edib.

"2026-cı ilə qədər Kəlbəcərə 13 000 əhali köçürüləcək".

Bunu ötən həftə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov Kəlbəcərdə jurnalistlərə açıqlamasında deyib.

"Cənab Prezident tərəfindən 3 kəndin, Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin, orta məktəbin, İşğal və Zəfər muzeylərinin də təməli qoyulub. Əlavə olaraq, Dövlət Şəhərsalma Arxitekturası tərəfindən İstisu qəsəbəsinin və əlavə 7 kəndin də ərazi planlaşdırma sənədlərinin hazırlanmasına başlanılıb. 2024-cü ildə 4 kəndin də ərazi planlaşdırma sənədlərinin hazırlanmasına başlanılacaq. Ümumilikdə 2026-cı ilədək 15 yaşayış məntəqəsi - bir şəhər, bir qəsəbə və 13 kənd olmaqla - bərpası, həmçinin 3500 mənzilin tikintisi nəzərdə tutulub. Bunun 1500-ü Kəlbəcər şəhərində, 2000-i isə digər ərazilərdə tikiləcək. Gələn ildən başlayaraq, 2026-cı ilə qədər Kəlbəcər şəhərinə 5000-dən çox əhali, digər ərazilərə isə 8000-ə qədər əhalinin köçürülməsi nəzərdə tutulub", - o əlavə edib.

Ağdamın Baş Qərvənd kəndində Slovakiya tərəfindən "Ağıllı kənd" layihəsi həyata keçiriləcək.


"Report" xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiya parlamentinin sədri Boris Kolların rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə bildirilib.

Slovakiya nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizə səfər edəcəyi məmnunluqla qeyd olunub və bunun həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri ilə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağı bildirilib.

Əslən Ağdamdan olan, Azad Vətən Partiyasının sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, bərpa və quruculuq işləri geniş ərazini əhatə

"İki iqtisadi zonanın mərkəzində Ağdam dayanacaq"

Akif Nağı: "Slovakiyanın quruculuq prosesinə qoşulmasını alqışlayırıq"



edir: "Azərbaycan rəhbərliyi həm ermənilərin və havadarlarının son müqavimətini sındırmaq, həm də həddindən artıq böyük ərazidə dəhşətli dağıntılardan sonra bərpa işlərini həyata keçirmək zorundadır. İstənilən böyük dövlətlər üçün də bu çox çətin vəzifədir. Hər özündən deyən dövlət bu işlərin öhdəsindən gələ bilməzdi. Amma bizdə şükürlər olsun ki, bütün cəbhə boyu işlər qaydasında gedir, köçün miqyası getdikcə genişlənir. Belə görünür ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının mərkəzində Ağdam dayanacaq. Bu da normal və məntiqli yanaşmadır, iqtisadi cəhətdən də sərfəlidir. Ağdam əvvəllər də, o cümlədən, xanlıq, "sovet" dönəmlərində regionun iqtisadi-ticari, həmçinin ictimai-siyasi mərkəzi olub. Ağdamda bu gün hərtərəfli quruculuq işləri gedir, yaşayış və istehsal binaları tikilir, yollar çəkilir, infrastruktur müasir tələblərə uyğun şəkildə qurulur, ən vacibi isə dəmir yolunun Ağdama qədər hissəsi artıq istifadəyə verilib. İndi "ağıllı kənd"lərin də inşasına başlayırlarsa, deməli, yaxın vaxtlarda ciddi nəticələr əldə olunacaq. Bütün bunlarla yanaşı, bəzi məqamların nəzərə alınmasını da istəyirik. İnsanlar həvəslə geri dönür, öz yurdlarında yaşamağa başlayırlar. Lakin bu, əks proseslərə, insanların məyus olmasına gətirməməlidir. Bunun üçün əvvəlcədən iş və məşğuliyyət yerləri təmin edilməlidir. İşləmək istəyənlərə fərqli variantlar təqdim olunmalıdır. Təsərrüfatla məşğul olmaq istəyənlərə uyğun, güzəştli şərait yaradılmalı, kredit və sairlə dəstək verilməlidir. İnsanlar yaşayış şəraitindən narazı qalmamalıdırlar. İşıq, su, qaz və digər təminatlar keyfiyyətli və fasiləsiz olmalıdır. Ən vacib məsələ qəbiristanlıqların təcili bərpa olunması ilə bağlıdır. Öz yurdlarına köçənlər, yaxud hələ köçməyənlər dünyasını dəyişən yaxınlarını öz qəbiristanlığında dəfn edə bilməlidir. Qəbiristanlıq yurd, hətta vətən anlayışının bir hissəsidir. Bunu hər kəs anlamalıdır. Başqa bir məsələ, kəndlərin necə bərpa olunacağıdır. Burada kənd sakinlərinin fikri nəzərə alınmalıdır. Bir də bərpa işlərinin sürətinin artırılması vacibdir. Bununla bağlı çətinlikləri başa düşürük, amma forması tapılmalıdır. Slovakiyanın bir Avropa dövləti olaraq bu prosesə qoşulmasını alqışlayırıq, digər dövlətlərin, dünyanın başqa qütblərinin, o cümlədən Çin, Yaponiya kimi dövlətlərin də iştirakı yaxşı olardı".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

Zəngəzur danışıqlarının dayandığı rəsmən elan olundu

Ermənistan danışıqlar görüntüsü yaratsa da, kommunikasiyaların qurulması üçün heç bir addım atmır

Rusiya baş nazirinin müavini Aleksey Overçuk Şərqi İqtisadi Forumun (EEF) kuluarlarında jurnalistlərə bildirib ki, Transqafqazda nəqliyyat əlaqələrinin açılması üzrə üçtərəfli işçi qrupun danışıqları davam edir, lakin "Ermənistan və Azərbaycan arasında gərginlik bu fəaliyyətə mənfi təsir göstərir".

"Təbii ki, münasibətlərdə hər hansı kəskinləşmələr həmişə işimizə mənfi təsir göstərir, ləngidir, vaxt keçir, biz yenidən qayıdıb oturub işə başlayaq".

Overçukun sözlərinə görə, Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin regionda nəqliyyat əlaqələrinin açılmasına dair növbəti görüşü bunun üçün şərait yetişəndə baş tutacaq.

Qeyd edək ki, bu ilin iyununda Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərindən ibarət üçtərəfli işçi qrupunun hərtərəfli sənəd formalaşdırdığı elan olunmuşdu. Bildirilirdi ki, regionda nəqliyyat kommunikasiyalarının açılması Yerasx-Culfa-Mehri-Horadiz marşrutu (Zəngəzur dəhlizi) ilə gedəcək dəmir yolunun bərpası ilə başlayacaq. Bu yola münasibətdə Azərbaycanda Azərbaycan qanunvericiliyi, Ermənistanda isə Ermənistan qanunvericiliyi tətbiq olunacaq. Overçuk isə demişdi ki, sənəd layihəsi baş nazirlərin müavinləri səviyyəsində demək olar tamamilə razılaşdırılıb, amma hələ də əlavə müzakirə tələb edən məsələlər var.



"Kilidin açılması nə vaxt olacaq deyə soruşsanız, bu suala hələ heç kim dəqiq cavab verməyəcək", - deyə Overçuk bildirmişdi. Cəmi iki ay əvvəl verilmiş bu optimist bəyanata baxmayaraq, görünən budur ki, kommunikasiyaların açılması haqda bundan əvvəlki razılaşmalar da müvəqqəti olsa da rəfə qaldırılıb.

Bu barədə **Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, Aleksey Overçuk Ermənistanla Azərbaycan arasında yaranan gərginliyin həm də Cənubi Qafqazda nəqliyyat əlaqələrinin açılmasına mənfi təsir göstərdiyini etiraf edib: "Hazırda biz nə sərhədlərin delimitasiyası, nə iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunması, nə də sülh müqaviləsi ilə bağlı bir irəliləyişi müşahidə etmirik. Əksinə, gərginlik, həyəcan, eskalasiya riskləri, separatizmin təşfiq olunması, sərhədlərimizə Ermənistan tərəfindən hərbi qüvvələrin cəmləşdirilməsi və ard-arası kəsilməyən təxribatlar, TIR şousu, Ermənistanın Azərbaycandan şikayətlər etməsi kimi danışıqları sıfırlayan addımları görürük. Nikol Paşinyan sanki öz verdiyi vədlərin girovuna çevrilib. Həm danışıqlar kontekstində, həm 10 noyabr üçtərəfli bəyanat müstəvisində, həm də daxili auditoriya qarşısında. Daxili və xarici siyasətdə Paşinyan çıxılmaz durma düşüb. Amma bizə nəticə maraqlıdır. Bizə sülhün dayanıqlılığının artırılması önəmlidir, Ağdam-Xankəndi marşrutu ilə yüklərin daşınması prioritet daşıyır".

Politoloq Xəyal Bəşirov isə bildirdi ki, İkinci Qarabağ müharibəsindən sonra nəqliyyat-kommunikasiyaların qurulması istiqamətində Azərbaycan atdığı addımlara, təşəbbüslərə mane olan qüvvələr var. Bu qüvvələrdən biri Ermənistandır. Ermənistan danışıqlar görüntüsü yaratmaq üçün ara-sıra danışıqlara qatılsa da nəqliyyat-kommunikasiyaların qurulması istiqamətində heç bir praktiki addım atmayıb: "Bu addımları atmamaq üçün isə ən müxtəlif pozucu, qeyri-konstruktiv təkliflər irəli sürüb, hərbi təxribatlara gedib. Nəticədə bugünkü vəziyyət yaranıb. Əldə olunmuş müəyyən razılaşmalar həyata keçirilməmiş qalır, danışıqlar dayanıb. Ermənistan bu vəziyyəti qəsdən yaradıb. Məqsəd Zəngəzur dəhlizinin açılmasına imkan verməməkdir. Rusiya tərəfi danışıqlarda ilk baxışda maraqlı görünür. Ancaq bəzi hallarda prosesin məhz onlar tərəfindən də gecikdirilməsinin şahidi oluruq. Rusiya Zəngəzur dəhlizinin açılmasında maraqlı olduğunu bu yaxınlarda yüksək səviyyədə bəyan etdi. Lakin dəhlizin açılması üçün Ermənistana lazımi səviyyədə təsir etmir. Azərbaycan isə mümkün qədər qısa müddət ərzində nəqliyyat-kommunikasiyaların bərpasını istəyir, buna çalışır. Azərbaycan bunun üçün beynəlxalq standartlara cavab verən yüzlərlə kilometr yollar, həmçinin dəmiryolları inşa edib, bu proses davam etdirilir. Artıq Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı üzərinə götürdüyü işlər həyata keçirilib yekunlaşmaq üzrədir. Amma Ermənistan tərəfi heç bir praktiki iş görməyib, öhdəliyini yerinə yetirmir. Rusiya Ermənistana təsir göstərmək imkanındadır. Əgər Rusiya danışıqların bərpa olunması və nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasını həqiqətən istəyirsə, İrəvana təsir göstərməlidir. Rusiya isə bunu etmir. Ancaq Rusiya və Ermənistan istəsə də, istəməsə də gec-tez Zəngəzur dəhlizi açılacaq. Bunun qarşısını uzun müddət almaq mümkün olmayacaq".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Rus pulunu ölkədən çıxarmaq çətinləşir - azərbaycanlılara zərbə

İqtisadçı deyir ki, Azərbaycana köçürülən vəsaitlərdə problem olacaq, daşınmaz əmlak bazarı isə...



Rusiyadan rublun çıxarılmasına limit tətbiq edilməsi təklif edilib. VTB-nin rəhbəri Andrey Kostin ruslar üçün ölkədən kənara təkcə xarici valyutanı ilə deyil, həm də rubl köçürmələrinin məhdudlaşdırılmasını təklif edib. Onun sözlərinə görə, rublun məzənnəsini dəstəkləmək üçün xaricə pul çıxarmaq boşluqlarını bağlamaq lazımdır. "Sadəcə, başa düşmək lazımdır ki, biz sülh dövründə yaşamırıq. Tutaq ki, siz xaricə pul köçürmək qərarına gəldiniz: limit xarici valyuta ilə ayda 1 milyon dollardır, lakin siz istədiyiniz qədər rublla köçürmə edə bilərsiniz. Məsələn, Ermənistana 1 milyard rubl köçürülür və o, dərhal dollar müqabilində geri qayıdır. Bu fürsəti bağlamaq lazımdır", - Kostin bildirib.

Bundan əlavə, o vurğulayıb ki, Rusiya hökuməti daha sərt valyuta nəzarəti tətbiq etməyi təklif edir. Kostin onu da qeyd edib ki, həddi xarici valyutada olduğu kimi, 100 milyon rubl müəyyən etmək olar.

VTB rəhbəri əlavə edib ki, Mərkəzi Bank digər variantlarla yanaşı, rublun çıxarılmasına limit tətbiq etmək təklifini nəzərdən keçirir: "Mənə elə gəlir ki, bu, rublla bağlı vəziyyətin inkişafından asılı olacaq".

Martın sonunda Rusiya Mərkəzi Bankı fiziki şəxslər üçün xarici banklara vəsait köçürməsinə qoyulan məhdudiyyətləri 2023-cü il sentyabrın 30-dək uzadıb. Məhdudiyyətlər nəzərdə tutur ki, Rusiya vətəndaşları və dost ölkələrdən rezident fiziki şəxslər hələ də bir ay ərzində istənilən xarici bank hesabına 1 milyon dollardan çox olmayan və ya başqa xarici valyuta ekvivalentində pul köçürə bilərlər. Rusiyada işləyənlərin Azərbaycana göndərdikləri məbləğlər bu qədər olmasa da, onlara da limit tətbiqi gələ bilərmi? İki ölkə arasında sahibkarlara hansı təsirləri ola bilər...

Mövzu ilə bağlı iqtisadçı-ekspert Natiq Cəfərli "Yeni Müsavat"a dedi ki, Rusiyada istənilən valyutada məhdudiyyətlərin tətbiqi qaçılmazdır: "İndi ancaq avro, funt, dollar və sairə bu kimi Qərb valyutalarında müəyyən məhdudiyyətlər var. Amma yuanla, rupi ilə, hətta rublla da xaricdən pul köçürmələrdə müəyyən məhdudiyyətlər olacaq. Çünki Rusiya iqtisadiyyatı bunu diktə edir. Rusiya iqtisadiyyatında dalğalanmalar yenidən başlayıb. Yenidən sanksiyaların təsiri getdikcə artır. Son məlumatlara görə, Azərbaycana da köçürülən vəsaitlər iki dəfədən çox eyni müvafiq dövrdə, yəni bu ilin ilk yarısında iki dəfədən çox azalıb. Bu onu göstərir ki, Azərbaycana köçürülən vəsaitlərdə problem yaranacaq, azalmalar olacaq. Bu, tək məhdudiyyətlərlə bağlı deyil. Bu həm də onunla bağlıdır ki, rubl dəyərdən düşüb, az qala 1 dollar 100 rubl civarındadır. Azərbaycanlılar orada rublla pul qazanırlar. Onlar rublu yenidən valyutaya çevirib öz ailəsinə göndərməkdə problem yaşayırlar. Çünki gəlirləri azalır, xərcləri artır. Rusiyada da güclü inflyasiya var, qiymət artımı müşahidə olunur. Ona görə də Azərbaycan iqtisadiyyatına düşən böyük həcmdə təsiri yoxdur. Çünki bizim Rusiyadan asılılığımız şükür ki, çox azdır. Amma bəzi regionlarda yaşayan soydaşlarımız uzun illərdir ki, Rusiyadan gələn vəsait hesabına sosial-iqtisadi problemlərini edirdilər, bax bu, onların dolanışığına təsir göstərə bilər".

Ekspert əlavə etdi ki, bu amil Azərbaycanda daşınmaz əmlak bazarına da mənfi təsir göstərə bilər: "Çünki Bakıda əsasən daşınmaz əmlak bazarında Rusiyadan gələn vəsait həmişə önəmli rol oynayırdı. Rusiyada qazanılan vəsaitlərin bir qismini soydaşlarımız Azərbaycanda daşınmaz əmlaka yatırırdı. Bazarda da getdikcə müəyyən durğunluq yarana bilər. Vəsait azaldıqca Rusiyadan gələn pulların Azərbaycanda daşınmaz əmlaka yatırılması məhdudlaşacaq".

Rusiyalı iqtisadçı və maliyyəçi Konstantin Tserazov isə bildirib ki, Rusiya Mərkəzi Bankının faiz artıracağı gözləntiləri, ixracatçılardan xarici valyuta təklifinin artması və daxili statistikada müsbət xəbərlər rublun bu həftənin əvvəlində möhkəmlənməsinə səbəb olub. Hər şey yaxşı getsə, yaxın həftələrdə dollar 90 rubla kimi ucuzlaşa bilər. Son günlər rəsmi qurumların hərəkətləri və ritorikası avqustun ortalarında baş verənlərə bərabərdir. Hər iki vaxtda dollar/rubl məzənnəsi 100-ə yaxın olub. Bu, onu göstərir ki, bu səviyyə qırmızı xətdir, son dərəcə arzuolunmaz hesab olunur", - deyə o düşünür.

"Marja" yazır ki, sentyabrın 15-də keçiriləcək növbəti iclasda Rusiya Mərkəzi Bankı uçot dərəcəsini yenidən 2 bənd artıraraq 14 faizə qaldıra bilər. Bu, rubl əmanətlərinin cəlbediciliyini artıra, kreditləşməni yavaşlada, idxal və xarici valyutaya tələbi azalda bilər. Qeyd edək ki, 15 avqustda Rusiya Mərkəzi Bankı növbədənkənar iclasında uçot dərəcəsini illik 8,5%-dən 12%-ə qaldırıb. İxracatçılardan xarici valyuta təklifinin artması (neftin dünya qiymətlərinin artması fonunda Brent və Urals arasında endirimin azalması) və Rusiya Mərkəzi Bankı tərəfindən xarici valyuta satışlarının müvəqqəti artması, habelə idxalçılar və möhtəkirlərin valyuta tələbinin azalması rublu dəstəkləyir. Tserazov əlavə edib ki, Rusiya büdcəsinin profisitə qaytarılması, həmçinin VTB-nin rəhbəri Andrey Kostinin "rublla xaricə vəsaitlərin köçürülməsinə mümkün limitlərin tətbiqi" barədə təklifi Rusiya valyutasına əlavə dəstək verir. "Rublun bahalaşmasının qalıcı olub-olmayacağı rəsmilərin rublu dəstəkləmək əzminindən asılıdır. Əgər Rusiya Mərkəzi Bankı uçot dərəcəsini artırılmış səviyyədə saxlasa, ixracatçılar kifayət qədər xarici valyuta tədarükünü saxlasalar və kapitalın xaricə çıxışını məhdudlaşdırmaq üçün əlavə tədbirlər görülsə, o zaman yaxın aylarda rublun məzənnəsinin daha da sabitləşməsinin şahidi ola bilərik", - iqtisadçı hesab edir. Onun sözlərinə görə, yaxın bir neçə həftə ərzində bir dolların 90 rubla çatması tamamilə mümkün görünür.

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

Oktyabrın 1-də nə olacaqsa, yaxşılığa doğru olacaq

Taksi sürücüləri və sərnişinlər isə narahatdır: bahalaşma, işsizlik...



Azərbaycanda taksi fəaliyyəti ilə bağlı qanunvericiliyə edilən yeni dəyişikliklər oktyabrın 1-də qüvvəyə minəcək.

Yeni qanunvericiliyə əsasən, taksi fəaliyyətində bir çox dəyişikliklər nəzərdə tutulur. Qanuna əsasən, taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi tələblərə uyğun olmalıdır. Həmin tələblərə cavab verməyən avtonəqliyyat vasitəsinə buraxılış kartının verilməsindən imtina olunacaq, verilmiş buraxılış kartının isə hüquqi qüvvəsi dayandırılacaq və ya o, ləğv ediləcək.

Həmin dəyişikliklərə görə, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün 3 min manat rüsum ödənilməlidir. Bundan əlavə, taksi ilə sərnişindaşımaları üçün buraxılış vəsiqəsi (125 manat) və buraxılış kartı (25 manat) alınmalıdır. Taksilərə rəqəmsal taxoqraf və taksometr cihazları quraşdırılmalıdır. Sürücülər etik davranış və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) Təlim-Tədris Mərkəzində taksi fəaliyyətinin tənzimlənməsinə dair oktyabrın 1-də qüvvəyə minəcək qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məqsədilə təlimlər davam etdirilir.

Bu qanunlar hələ qüvvəyə minməsə də, onlara münasibət birmənalı deyil. Üstəlik, yeni qanunun taksi bazarında bahalaşmaya səbəb olacağı bildirilir. Artıq sosial mediada şəhərdə taksi qıtlığı yaşandığı və qiymətlərin qalxdığı iddia edilir.

Yeni qanunvericiliyin tələblərinə uyğun olmayan, rüsum ödəməyən, taksometr quraşdırmayan taksilər proqramdan ayrılacaq. Bununla da həm taksi qıtlığı yaranacaq, həm də bəzi şəxslər işsiz qalacaq. Taksi qiymətlərinin daha da bahalaşacağı ilə bağlı iddialar da səsləndirilir.

Məsələ ilə bağlı Modern.az-a danışan Milli Məclisin deputatı Rüfət Quliyev dəyişikliyin qiymətlərə də təsir göstərəcəyini düşünür. "Mənə elə gəlir təbiidir ki, qiymət və keyfiyyət bir-birinə bağlı məsələlərdir. Qiymət artımını istisna etmirəm. Qiymət artımı çox güman ki, olacaq. Amma bu keyfiyyətin də artımına gətirib çıxaracaq. Sərnişinlərin daha rahat hərəkət eləməyinə səbəb olacaq. Şəhərdə müəyyən normal takislərin hərəkət etməyinə də təsir edəcək, müsbət yöndən. Bu prosesin təsiri özünü ən azı 1-2 ay keçəndən sonra göstərəcək. Necə dəyişikliklər ola biləcəyini görəcəyik".

Ekspert Elməddin Muradlı qanunun bu sahədəki özbaşınalığın qarşısını alacağını qeyd edir: "Qiymət artımı keyfiyyətin artmasına təsir göstərən vasitə deyil. Qiymət artımı, sadəcə, sürücülərin istismarının qarşısını almaq üçün atılan addım idi. Minimal 2.50 qəpik həddi götürülüb ki, ondan aşağı qiymət tətbiq olunmamalıdır. Xarici şirkətlər xüsusən də "Bolt", "Uber, "Yango", "Yandex" özbaşınalıq edirlər, qiymətləri hədsiz aşağı salmaqla sürücüləri istismar edirlər. Günün istənilən saatı onlar işləmək məcburiyyətində qalır ki, qoyulan gediş sayını tamamlasınlar. Bunun qarşısını almaq üçün Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən addım atıldı. Qiymətlər tarazlaşdırılır. Ayın 1-dən qüvvəyə minəcək qaydalar taksi sahəsində xidmətin keyfiyyətini artırmağa yönəlmiş qərardır. Hazırda demək olmaz ki, ayın 1-i qərar qəbul olunacaq, 5-i hər şey qaydasına düşəcək. Bu məsələlər zamanla həll oluna bilər. Bu, xeyli vaxt aparacaq".

Daha bir ekspert Eldəniz Cəfərov isə qiymətlərin sabit qalacağını deyib: "Takzi sahəsində nizam-intizam yaratmaq üçün yeni qanunlara ehtiyac var idi. Onlar da qəbul edildi. Düşünürəm ki, yeni mövsümdən bu qanunlar sayəsində taksi xidmətində keyfiyyət yüksələcək və vətəndaş üçün daha təhlükəsiz olacaq. Qiymətin bahalaşması və ya uculaşması birbaşa tələb-təklif əsasında formalaşır. Düşünmürəm ki, kəskin artım və ya azalma olmayacaq. Vətəndaşlar üçün əlçatan qiymətlər olacaq.

Taksi qiymətləri dəyişən tarifdir, qiymətlərdə kəskin fərq olmayacaq, sabit qalacaq".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Müəllimlərin məvacibi yaxşıdır, amma daha yaxşı olmalıdır

Ekspertə görə, hazırda müəllimlərin əsas problemi dərs yükü ilə bağlıdır

"2023-cü ilin sentyabr ayı üçün müəllimlərin əmək haqqı 830 manat təşkil edib". Bu sözləri ötən həftə elm və təhsil naziri Emin Əmrullayev yeni tədris ili ilə bağlı media üçün keçirilən brifinqdə deyib. Nazirin sözlərinə görə, "Sertifikatlaşdırma imtahanları keçirildikcə, müəllimlərin əməkhaqlarına əlavələr olunacaq və bu da orta aylıq əmək haqlarının artmasına gətirib çıxaracaq. 2023-cü ilin fevralında bu rəqəm 790 manat olmuşdu", - deyə nazir qeyd edib.

Məlum olduğu kimi, son illərdə ölkədə ən müxtəlif sahələrdə bahalaşma müşahidə olunur. Bəs bunun fonunda müəllimlərin hazırkı maaşı nə dərəcədə qaneedicidir?

Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramovun fikrincə, Azərbaycanda müəllimlərin orta aylıq maaşı ölkə üzrə ümumi orta aylıq əmək haqqından aşağıdır. Deputat qeyd edib ki, müəllimlərin orta əmək haqqı ölkə üzrə orta aylıq əmək haqqından 10 faiz azdır:

"Avropada ən yüksək əmək haqqı alan müəllimlər Lüksemburqda yaşayırlar: illik əmək haqları 69,076 min avrodur. Daha sonra İsveçrə (66,972 min avro), Almaniya (54,129 avro) və Danimarka (47,980 avro) gəlirlər.

Qardaş Türkiyədə bu ilin iyul ayının yekunlarına əsasən, orta məktəb müəllimlərinin illik maaşları 12 min dollardır. Bu qardaş ölkədə müəllimin orta hesabla ayda 1000 dollar maaş alması anlamına gəlir. Təbii ki, burada mülkiyyət növləri və bölgələr üzrə fərqlər da var. Bununla yanaşı, Türkiyədə müəllimlər öz ölkələrinin orta aylıq əmək haqqı ilə müqayisədə təxminən 2 dəfə çox maaş alırlar. Qeyd edək ki, Türkiyədə minimum əmək haqqı (425 dollar) ilə ümumi orta aylıq maaş arasında fərq yüksək deyil. Bu baxımdan, Azərbaycanda da müəllimlərin orta aylıq maaşının ölkə üzrə orta aylıq əmək haqqından daha yüksək olması vacibdir. Təhsil ölkənin, cəmiyyətin və eləcə də iqtisadiyyatın inkişafında əsas lokomotivdir. Bunun üçün də təhsilverənlərin əməklərinin daha yüksək qiymətləndirilməsi önəmlidir".



Deputat həmçinin qeyd edib ki, müəllimlərin daha yüksək əmək haqqı almasına nail olunması üçün sertifikasiya imtahanlarında nəticələrin daha ədalətli və səmərəli qiymətləndirilməsinə ehtiyac var: "Mövcud qaydalara əsasən, sertifikatlaşdırmada iştirak edib sualların 83.3 faizini düzgün cavablandıran müəllim 50 faiz doğrusu olanla eyni əmək haqqı artımından faydalana bilir. 51 sualı düzgün cavablandıran müəllimlərimiz 35 faiz artımdan yararlandığı halda, cəmi 1 düzgünü az, yəni 50 doğrusu (83.3 faiz nəticə) olan pedaqoqumuzun əmək haqqında cəmi 10 faiz artım hesablanır.

Qeyd edək ki, son illər təhsilə ayrılan vəsaitin həcmində artımlar qeydə alınır. Bu sahədə dövlət siyasəti güclənməkdədir. Belə ki, bu ilin büdcəsindən ən çox vəsait ayrılan sahələrdən biri təhsildir. Təhsilə ayrılan məbləğ 2023-cü ildə 4 milyard 423 milyon manat təşkil edir, bu da 2022-ci illə müqayisədə 536,5 milyon manat və ya 13,8 faiz, 2021-ci ilin icra göstəriciləri ilə müqayisədə isə 1,3 milyard manat (42,4 faiz) çoxdur.

Deməli, vəsait var. Sadəcə, daha səmərəli əmək haqqı sisteminin yaradılması ilə bağlı islahatlar daha da dərinləşməlidir".

Millət vəkili Fazil Mustafa da Modern.az-a açıqlamasında müəllimlərin maaşlarının Avropa ilə müqayisədə az olduğunu diqqətə çatdırıb: "Müəllimlərin maaşlarının qaldırılması istiqamətində addımlar atılır. Bunun da yüksək səviyyəyə çatdırılması düşünülür. Bu, müsbət tendensiyadır. Ölkədə ən yüksək maaş alan kateqoriya güc strukturlarından sonra müəllimlər olmalıdır. Müəllimlər bu vəsaitlə normal yaşayışlarını təmin etmə imkanına sahib olmurlar. Bu səbəblə də məcbur repetitorluq fəaliyyyətinə üz tutmalı olurlar. Halbuki yüksək maaş olsa, müəllim özü də məktəbə daha çox bağlanar, faydalı töhfə verə bilər. Xüsusilə də uşaqların dərs müddətində hazırlanması, onların daha yetkin formalaşmasına kömək edə bilərlər. Bu baxımdan, maaşların indiki səviyyəsi Avropa ilə müqayisədə ürəkaçan deyil, qalxmalıdır. Amma imkanlara da baxmaq lazımdır. Müəllimlərin maaşını artırmaq normal tendensiyadır, buna vaxtaşırı gedilməlidir. Müəllimin normal təminatı olmasa, gələcəyimiz üçün layiqli vətəndaşların yetişdirilməsində də problemlər yaşanacaq".

Milli Məclisin Elm və təhsil komitəsinin deputatı Ceyhun Məmmədov isə bildirib ki, əvvəlki illərlə müqayisədə müəllimlərin orta aylıq əmək haqqında xeyli fərqlər var, yəni indi müəllimlərin maaşı xeyli yüksəkdir: "İllər öncə bu maaşlar təxminən 300-400 ətrafında cərəyan edirdisə, bu gün daha çoxdur. Əlbəttə ki, bu, tam yetərli olmasa da, illər öncə ilə müqayisədə yaxşıdır, normaldır. Söhbət 10 minlərlə insandan, onların maaşlarının artırılmasından gedir. Düşünürəm ki, bu, irəliləyişdir. Biz bir neçə il ərzində müəllimlərin maaşının bir neçə dəfə qalxmasına nail olmuşuq. Bu, təhsilin keyfiyyətinə ciddi təsir göstərir. Heç bir müəllim 300-400 manata gedib işləmək istəmir. Getdikcə maaşlar qalxacaq, artacaq. Bu da təhsilin keyfiyyətinə, məzmununa təsir edəcək. Birdən-birə hamının maaşını ən yüksək səviyyəyə qaldıra bilmərik. Zaman, müddət lazımdır".

Mövzu ilə bağlı təhsil eksperti Elşən Qafarov "Yeni Müsavat"a daşınıb. Ekspert qeyd edib ki, müəllimlərin əsas problemi dərs yükü normativi ilə təmin olunmamasıdır: "Azərbaycanda digər peşə sahələrinə nisbətən müəllimlərin əmək haqqı son illərdə mərhələli şəkildə artmaqdadır. Nazir orta əmək haqqının 813 manat olduğunu qeyd edir. Amma müəllimlərin əsas problemi dərs yükü normativi ilə təmin olunmamasıdır. Ölkə Prezidentinin 16 yanvar 2015-ci il tarixli 994 nömrəli Sərəncamı ilə ümumtəhsil məktəblərində müəllimlərin dərs yükü normasının 18 saata çatdırılması nəzərdə tutulur. Və bu sərəncama uyğun olaraq 2010-cu ildə Nazirlər Kabinetinin 215 nömrəli qərarı ilə qəbul edilmiş müəllimlərin dərs yükü normasında dəyişiklik edilib və artıq 8 ildir ki, müəllimlərin dərs yükü norması 18 saat müəyyən olunub. Amma hazırda müəllimlərin böyük bir qismi, xüsusən də müəllim sıxlığı olan məktəblərdə müəllimlər 18 saat dərs yükü norması ilə təmin olunmayıb. Bu da müəllimlərin daha aşağı əmək haqqı alması ilə nəticələnir".

Ekspert də qeyd edib ki, hazırkı vəziyyətdə 830 manat belə azdır: "Arzulayardım ki, növbəti ildə müəllimlərin əmək haqqında müəyyən əlavələr olsun, artsın. Xüsusən də sertifikasiyada uğur qazanmış müəllimlərin əmək haqqında dəqiqləşdirilmələr aparılsın, yəni hazırda bu, doğrudan da ciddi haqlı narazılıqlara gətirib çıxarır. Belə ki, 30 bal toplayanla 50 bal toplayanlara eyni əmək haqqı verilməsi narazılıq yaradır. Təklif edirik ki, sertifikasiyadan keçmiş müəllimlər öz ballarını artırmaq istədikdə növbəti illərdə onlar üçün şərait yaradılsın. Bu təcrübə bir neçə ölkədə var. Məsələn, müəllim 50 bal topladı, sertifikasiyadan keçdi, amma istəyir ki, balını daha da artırsın, əmək haqqına təsir etsin, bunun üçün şərait yaradılsın. Belə olan halda nəticə etibarı ilə yenə də təhsil qazanacaq. Çünki müəllim öz üzərində daha çox işləyəcək".

❑ **Xalidə GƏRAY,**
Musavat.com

2026-cı ildə müəllimlərin 15 faizi yenilərlə əvəzlənəcək

Təhsildə ən əhəmiyyətli dövr erkən yaş dövrüdür. İkinci dövr ibtidai təhsildir.

Bunu elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında söyləyib. Nazir məktəbəqədər təhsil müəssisələrində çalışanların bu sahənin mütəxəssisi olmaması problemindən danışıb. Eyni zamanda qeyd edib ki, ölkədə bütün ibtidai sinif müəllimləri sertifikasiyadan keçirilib.

"2026-cı ildə mövcud müəllim sayının 10-15 faizinin yenilənməsini düşünürük", - deyə Emin Əmrullayev qeyd edib.

Tələbələr ən çox hansı ixtisaslara üstünlük verdilər?

2022-2023-cü il tədris ilinin ixtisas seçiminin nəticələri artıq bəllidir. Tələbə adımı qazananlar universitetlərə qeydiyyat prosesini tamamlamaq üzrədirlər. Müsabiqənin nəticələrinə əsasən 51 941 nəfər (o cümlədən 6592 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub.

Maraqlıdır, bu il abituriyentlər əsasən hansı ixtisaslara üstünlük veriblər?

Ekspert Kamran Əsədov bu il imtahanlardan sonra maraqlı mənzərə ilə qarşılaşdığını bildirib: "Xüsusən I ixtisas qrupu üzrə riyaziyyat, informatika alt qrupunda çox fərqli bir mənzərə yarandı. Hər il ən yüksək balın formalaşdığı riyaziyyat, informatika ixtisasları bu il bal olaraq kəskin şəkildə aşağı düşdü. Amma buna baxmayaraq, yenə də I ixtisas qrupunda gördük ki, abituriyentlər tərəfindən informasiya texnologiyaları, informasiya təhlükəsizliyi, kompüter elmləri, kompüter mühəndisliyi daha çox seçildi. Amma əvvəlki illərdə yüksək bal formalaşan proseslərin avtomatlaşdırılması, riyaziyyat, informatika müəllimliyi ixtisaslarında o qədər də yüksək bal görə bilmədik".Onun sözlərinə görə, bu il abituriyentlər daha çox İKT ixtisaslarına meyl göstərib.(Modern.az)

"II ixtisas qrupunda daha çox birmənalı şəkildə maliyyə ixtisasına meyillənmə var idi. Düzdür, mühasibat ixtisası əvvəllər populyar olsa da, son illər bu ixtisası seçənlər azlıq təşkil edir. II ixtisas qrupunda pedoqoji ixtisasa üstünlük verənlər az idi. Daha az bal toplayan abituriyentlər bu ixtisasları seçirdilər. III qrupda hüquq və dövlət və ictimai münasibətlər ixtisası maraqla qarşılanan ixtisaslardan idi. Eyni zamanda elektron ərizədə də ən çox yazılan ixtisaslardan idi. IV ixtisas qrupunda tibb ixtisası və psixologiya ixtisasına meyillənmə var idi. Hətta ən az bal toplayan abituriyentlər də böyük ümidlərlə bu ixtisası yazırdılar. V ixtisas qrupunda abituriyentlərin daha çox dizayn ixtisasına meyl etdiyini görə bilərik", - ekspert vurğulayıb.

YENİ MÜSAVAT
N 162 (8298) 13 sentyabr 2023

Telli Mədət və Xankəndidə torpaq satan dəli qadın

Tanınmış jurnalist və Qarabağ qazısı Rey Kərimoğlu bu günümüzlə səsləşən maraqlı sənədli hekayə yazıb. Mövzunun aktuallığını nəzərə alaraq onu "Yeni Müsavat" oxucularına təqdim edirik.


Rey Kərimoğlu

Kəndə hay düşdü ki, Mədət qonşu kənddən Jasmen adlı erməni qızını qaçırıb...

Aylı bir yay gecəsi idi. Hər gecə olduğu kimi, ətrafı yoxlamaq məqsədilə erməni kəndi ilə bizim kəndimiz arasındakı Xatınarxı çayının ətrafında gəzişirdim. Ay işığı hər tərəfi süd kimi işıqlandırır və mən hər qarışını əzbər bildiyim yerləri nə vaxtdır adət etdiyim bir diqqətlə izləyirdim.

Sırayla düzülmüş böyürtkən kollarını keçib pişpişəliyə çatanda qulağıma lap yaxından səslər gəlməyə başladı. Bu, nə yaxınlıqdakı çayın şırıltısı, nə cırcırama səsi, nə çaqqal ulaması, nə it hürməsi deyildi. Daha çox iniltiyə bənzəyirdi.

Əvvəlcə mənə elə gəldi ki, hansısa yaralı heyvanın iniltisidir. Dəqiqləşdirmək üçün səs salmamağa çalışaraq, barmaqlarımın ucunda ehtiyatla irəliləyib, pişpişəliyə uzandım və bütün diqqətimi toplayıb, səsi dinləməyə başladım.

Ani sükutdan sonra səs yenidən gələndə eşitdiyimin insan səsi olduğunu dəqiqləşdirib, bir az da səfərbər oldum. Ermənilər ola bilərdi. Hər ehtimala qarşı kəmərimə keçirdiyim əldədüzəltmə tapançamı çıxarıb, hazır vəziyyətdə Xatınarxına sarı bir az da irəlilədim. Çaya lap yaxınlaşıb, budaqları suya sallanmış qovaq ağacına söykəndim və səsə daha diqqətlə qulaq kəsildim.

Bu, kiminsə eşidəcəyindən çəkinərək için-için ağlayan kişinin hıçqırtısı idi. Səs bir az yuxarıdan, Xatınarxı çayının böyük olmayan dərəsi boyunca sanki suya qarışıb, axıb gəlirdi.

On dörd gecəlik ayın yerə yolladığı süd rəngli işıq danışanları uzaqdan bir cüt kölgə kimi "ələ verirdi". Yavaş-yavaş bu bir cüt kölgəyə yaxınlaşdıqca kişi hıçqırtısının arada nəysə pıçıldadığını da eşidirdim. Azərbaycanca danışırdılar. Amma tam aydın olmurdu ki, kişi nə deyir. Hıçqırtı ilə pıçıltı bir-birinə qarışmışdı.

"Kişi necə ağlayarmış, ilahi!"- fikirləşirdim.

Bir az da irəliləyib, o bir cüt kölgənin yaxınlığında üzüqoylu uzanıb, onları dinləyirdim:

- Jasmen, Jasmen! Mən haranın daşın salım başıma, Jasmen?! Mən neyləyim, Jasmen?! Bu nə iş idi gəldi bizim başımıza? İndi neyləyək? - kişi balaca uşaq sayağı hıçqıra-hıçqıra pıçıldayırdı.

Jasmen isə qarışıq ləhcəylə ona cavab verməyə çalışırdı:

- Bilmiram, məsəb haqqı, bilmirəm! Danış görum, Anar necadır?

- Yaxşıdır, Anar da yaxşıdır o biriləri də. Təkcə Güllü sənin kürlüyünü edir. Səni istəyir! "Ana" deyib, dünyanı dağıdır, Jasmen! Onu heç kəs ovuda bilmir...

Mən bu səsin sahibini beynimi çox da zorlamadan asanlıqla tanıdım. Kəndçimiz Telli Mədət idi.

***

Kəndimizdə bir neçə Mədət var idi. Keçəl Mədət, Usta Mədət və Telli Mədət. Təhsilsiz, fağır və sakit adam idi Telli Mədət. Ata-babadan fəhlə olmuşdular. Həm də kəndin xeyir işlərində at belində camaatı toya-düyünə dəvət edirdi. Özünün atı olmazdı, toy sahibinin, ya da toy sahibinin qohum-əqrəbasının atını bir günlük ona verərdilər. Onda Mədət özünü at belində lap dağın başındaymış kimi hiss edərdi.

Bəzən hətta atdan düşəndən iki-üç gün sonra da özünü mühüm adam hesab edərdi.

Mədətin taleyinə acıyırdım...

Hələ əmin-amanlıq idi, aralığa qan düşməmişdi. Bir gün kəndə hay düşdü ki, Telli Mədət qonşu kənddən Jasmen adlı erməni qızını qaçırıb. Erməni qızını qaçırdığına görə Mədəti danlayanlara o, tutuquşu kimi əzbərlədiyi bir sözü deyirdi:

- Sevən gözlər kor olar!

O vaxt yüz faiz əmin idim ki, Mədət bu sözün mahiyyətini əsla bilmir. Beləcə, Mədət sözünün üstündə durub, toy da elədi.

Mədətlə Jasmenin beş uşağı oldu - Güllü, Cəmilə, Ellada, Sabir, Anar.

Sonuncu uşaq olanda artıq dava başlamışdı. Ermənistandan, Xankəndidən, Ağdərədən, Xocavənddən azərbaycanlıları qovurdular. Bakıda, Sumqayıtda, Şamaxıda, Gəncədə, Ağdamda yaşayan ermənilər də belə bir vəziyyətdə birgə yaşamağın mümkün olmadığını anlayıb, gedirdilər. Növbə bizim kəndə də gəlib çatmışdı. Jasmen, məncə, daha çox utandığından çölə-bayıra çıxmırdı. Ona görə utandığından ki, Qarabağ məsələsini ermənilər - onun mənsub olduğu millətin nümayəndələri başlamışdı. Amma Mədətin uşaqları küçəyə çıxır, məktəbə gedib-gəlirdi. Bir-iki yeniyetmə uşaqdan savayı heç kəs onlara "gözün üstə qaşın var" demirdi.

Nəhayət, belə yaşamağın mümkün olmadığını anlayan Jasmen bir gecə kəndimizi tərk elədi. Mədət gecənin bir vaxtı onu sakitcə aparıb Xatın arxından keçirib, öz kəndinə yola salmışdı. O vaxtdan Jasmen öz doğulduğu kənddə yaşamağa başladı. İmkan tapan kimi gecələr Xatınarxı çayının qırağında Mədətlə görüşüb, dərdləri ilə baş-başa qalırmışlar...

- Madat, qadan alım, burnumun ucu goynayır Güllüdan otru! Nolar, bir dafa gatir onu gorum!

- Gətirərəm, Jasmen, gətirərəm!

- Sabira da de, kandda heç kasla spor-zad elamasın! Pis vaxtdır ha. Oldumu, Madat?!

- Eləmir, çox sakit uşaqdır.

- Madat, Allah bu davanı başlayan ermənilərə lanat eləsin elə!

- Eləsin, Jasmen, eləsin!

- Gul kimi yaşayırdıq. Mexriban qonşularımız var idi. Bizi çox istayırdı onlar. Heç bilmiram, bu dava qurtarandan sonra onların uzuna neca baxacam?! Madat, ermənilər məni çox incidir, təhqir edirlər, alçaldırlar. Dali olmasam yaxşıdı, məsəb haqqı. Kaş bu muharba başlamayadı...

- Hə də, Jasmen. Gül kimi yaşayırdıq, dolanırdıq, xoşbəxt idik. Sənə güldən artıq bir söz deyən olurdu?

- Yox, mashab haqqı, demirdilar!

***

1993-cü ilin yayında ermənilər kəndimizi işğal edib, yandırdılar. Deyirlər, həmin gündən bir erməni qadın Mədət, Güllü, Cəmilə, Ellada, Sabir, Anar - haraylayıb, kəndimizi dolaşırmış. Kənd köçəndən bir neçə gün sonra havalanan qadın hələ də kəndin xarabalığında balalarını axtarırmış...

Mədət, Güllü, Cəmilə, Ellada və digər iki qardaşları isə işğal altında qalan öz doğma kəndlərindən uzaqda - çadır şəhərciyində yaşayırdılar.

Sonradan Anar könüllü olaraq orduya yazılıb, ermənilərə qarşı döyüşdü.

Telli Mədət çadır şəhərciyində bir il yaşayandan sonra dünyasını dəyişdi.

***

Xankəndidən olan, vaxtilə azərbaycanlılarla münasibəti olmuş bir erməni illər sonra Rusiyada bizimkilərə bir əhvalat danışıb. Deyib ki, 1993-cü ilin payızında Xankəndidə küçədə üst-başı kirli, nimdaş paltarda dəli bir qadın görüb. Şəhərin mərkəzi küçələrində bir torba torpağı qarşısına qoyub, yanından keçənlərə səslənirmiş:

- Qarabağ torpağıdı. Satmıram, pulsuz verirəm! Alın, yeyin! Niyə yemirsiniz?! Torpaq istəmirdiniz? Alın də! Alın, doyunca yeyin! Amma balalarımı qaytarın mənə!

Sonra da qol götürüb oynayırmış...

Hər gün axşam da torpaq kisəsinin ağzını səliqə ilə bağlayıb, qoltuğuna vurub, ağlaya-ağlaya qaranlığa qarışırmış. Gecənin qaranlığında onun taqətsiz, bir az da havalı səsi küçələri dolaşırmış:

- Mədət! Güllü! Cəmilə! Ellada! Sabir! Anar!..


Əlixan Məhərrəmli

QHT sədri nədə ittiham edilir?


Türkiyənin Kayseri şəhərində fəaliyyət göstərən Azərbaycanlı Tələbələr Birliyinin rəhbəri Əlixan Məhərrəmlinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.

O, hədə-qorxu ilə tələb etmədə ittiham olunur. Cinayət işi üzrə materiallar baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş hakim Faiq Qəniyevin icraatındadır. Məhkəmənin hazırlıq iclası sentyabrın 21-nə təyin edilib. Cinayət işi üzrə zərərçəkmiş qismində Sevinc Əliyeva və Səidə İlyasova tanınıblar. İlkin məlumata görə, Kayserideki universitetlərdən birində təhsil alan 22 yaşlı tələbə Yasamal rayon Polis İdarəsinin 29-cu Polis Bölməsinə müraciət edərək QHT rəhbəri Əlixan Məhərrəmlinin onu şantaj edərək hədə-qorxu yolu ilə 20 min dollar tələb etdiyini bildirib. Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində Əlixan Məhərrəmli müəyyən olunaraq saxlanılıb və barəsində Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsilə cinayət işi başlanıb. Məhkəmənin qərarı ilə onun barəsində 3 aylıq həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Ağcabədi rayon sakini olan 1997-ci il təvəllüdlü Əlixan Məhərrəmli 2018-ci ildə Kayseri Azərbaycanlı Tələbələr Birliyinin sədri və 2020-ci ildə Kayseri Türk Dünyası Tələbələr Birliyinin sədridir.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

Casusluqda ittiham olunan İran vətəndaşı məhkəmə qarşısında



● İran vətəndaşı, casusluqda ittiham olunan Məhəmməd Nəcəf oğlu Qaedinin cinayət dosyesi Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi üzrə hazırlıq iclası sentyabrın 18-nə təyin olunub. Məhəmməd Nəcəf oğlu Qaedi bu ilin martında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) əməkdaşları tərəfindən saxlanılıb.

O, Azərbaycan ərazisində casusluq etməkdə şübhəli bilinərək həbs edilib. O zaman yayılan məlumatlarda deyilirdi ki, Məhəmməd Nəcəf oğlu Qaedi Tehran şəhərinin Niavəran rayonundandır. Məhəmməd Qaedinin sosial şəbəkədəki dostlarının əksəriyyətinin azərbaycanlılar olub. Paylaşdığı fotoların birində isə məşhur Azərbaycan şairi Şəhriyarın portreti ilə yanaşı dayanıb. 1994-cü il təvəllüdlü Məhəmməd Qaedi tərəfindən Azərbaycan ərazisində casusluq cinayət əməllərinin törədilməsinə əsaslı şübhələr müəyyən edilib. Toplanmış çoxsaylı sübutlar əsasında onun xarici xüsusi xidmət orqanının tapşırığı ilə dövlət sirri olan və Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün məlumatların toplaması və verilməsinin təşkili, o cümlədən Azərbaycan Respublikası hüquq-mühafizə orqanı əməkdaşları barədə fərdi məlumatların əldə edilməsi, onlarla şəxsi münasibətlər qurulması və onların xarici ölkənin xüsusi xidmət orqanı tərəfindən məxfi əməkdaşlığa cəlb edilməsi istiqamətində fəaliyyət göstərdiyi məlum olub. Məhəmməd Qaedi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilib və məhkəmə tərəfindən barəsində həbs qətimkan tədbiri seçilib.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Müsavat"

YENİ MÜSAVAT


Son səhifə

N 162 (8298) 13 sentyabr 2023



Portuqaliyada "şərab seli" şəhər küçələrini qırmızıya boyadı

Portuqaliyanın Anadiya şəhərində yerləşən "Levira Distillery" şərab zavodunda qəza baş verib. Nəticədə iki çən həcmindəki şərab şəhərin küçələri ilə axmağa başlayıb. Şəhər küçələrinin qırmızıya boyandığı maraqlı görüntülər sosial şəbəkələrdə gündəm olub.



Kazanda paltaryuyan maşında qalan uşağı xilasedicilər çıxardı


Tatarıstanın paytaxtı Kazan şəhərində beş yaşlı uşaq paltaryuyan maşının içinə girib. Amma girdiyi kimi rahat şəkildə çıxa bilməyib, maşının içində ilişib qalıb. Uşağı çıxara bilməyən valideynlər xilasediciləri çağırmalı olublar. Balaca "qəhrəman" xilasedicilərin köməyi ilə "tələdən" qurtula bilib.



Yaponiyanın şimalında 11 mindən çox ev işıqsız qalıb

Yaponiyanın şimalındakı Hokkaydo prefekturasında güclü yağışlar nəticəsində ən azı 11 700 ev elektrik enerjisindən məhrum olub. Bundan əlavə, prefekturanın bir neçə bölgəsində dəmir yolu nəqliyyatının hərəkətində fasilələr yaranıb. 30-a yaxın müxtəlif tikililəri su basması faktı qeydə alınıb. Hokkaydo yerli hökumət nümayəndələri bərpa işlərini həyata keçirmək üçün xilasetmə qrupları göndərib.

Ay Günəşə görə hər gün iki dəfə silkələnir



"Ayın səthi Günəşin təsirinə görə hər gün iki dəfə - səhər və axşam silkələnir. Bu dalğalanmalar o qədər müntəzəm və dəqiqliklə baş verir ki, hətta saatları onlara uyğun qurmaq olar".

Bu barədə ABŞ-ın Kaliforniya Texnologiya İnstitutunun alimlərinin araşdırmasından məlum olub. Onların tədqiqatları "Journal of Geophysical Research: Planets" ("JRG: Planets") elmi jurnalında dərc olunub. Mütəxəssislər bu təkanların səbəbini Günəş şüaları ilə qızma nəticəsində Ayın səthində temperaturun qəfil dəyişməsi ilə izah ediblər.

"İzolyasiya edən atmosferi olmadığından Ayın səthi bir günde +120 dərəcəyə qədər qıza və sonra -133 dərəcəyə qədər soyuya bilər. Temperaturun dəyişməsi Ay bünövrəsinin sıxılmasına və genişlənməsinə səbəb olur ki, bu da kiçik Ay zəlzələləri ilə nəticələnir", - deyə tədqiqatçılar izah ediblər. Tədqiqatçılar Yerin peykində qeyri-adi seysmik aktivlik mənbəyini də aşkar ediblər. Buranın 1976-cı ildə Aya yollanan "Apollon 17" kosmik gəmisinin eniş yeri olduğu ortaya çıxıb. Bildirilir ki, metal konstruksiyalar o qədər güclü qızıb ki, onların vibrasiyasını seysmometrlərdən istifadə etməklə də aşkar etmək mümkün olub.

Ekspertlərin sözlərinə görə, Ay zəlzələlərinin təbiətini başa düşmək gələcək insanlı missiyalar və Ayda bazaların yaradılması üçün vacibdir.

Bundan əlavə, yeraltı təkanlar nüvəni öyrənməyə imkan verir. Belə ki, seysmik dalğalar müxtəlif materiallar vasitəsilə müxtəlif sürətlə yayılır, bu isə alimlərə buz yataqlarının və digər resursların axtarışına kömək edə bilər.

Qripla koronavirusa eyni vaxtda yoluxmağın fəsadları



"Bəzi hallarda insanlar koronavirus infeksiyasına qriplə paralel olaraq yoluxa bilərlər. Əsasən hipertoniyadan əziyyət çəkənlər bu vəziyyətə görə daha həssas təbəqədirlər". Bu barədə tanınmış rusiyalı infeksionist Yelena Meskina məlumat verib. Həkim vurğulayıb ki, bir neçə infeksiyaya paralel yoluxmadan çəkinmək lazımdır.

"Koronavirus damar sisteminə təsir edir, bunun üzərinə bir də qrip əlavə olunarsa, hər şeyin nə qədər pisləşəcəyini təsəvvür edin. Bir hüceyrədə bir neçə növ təhlükəli virusun birləşməsi fenomeni koinfeksiya adlanır. Belə bir vəziyyət koronavirusun gedişatını son dərəcə çətinləşdirir", - deyə o əlavə edib.

Mütəxəssis belə halla qarşılaşmamaq üçün tibbi müayinədən keçməyi, həmçinin qripə və koronavirusa qarşı peyvənd etməyi məsləhət görüb. "Bu xəstəliyin ağır inkişaf ehtimalını aradan qaldıracaq", - deyə Y.Meskina sözlərini yekunlaşdırıb.



Rusiyada iti illərlə kilidli avtomobildə saxladılar

Rusiyanın Sankt-Peterburq şəhərində dörd ildir ki, retriver cinsindən olan it bütün gününü avtomobilin yük yerində keçirir. Günəş avtomobili qızdırmasına baxmayaraq, sahibləri onu çox nadir hallarda gəzdirirlər. İt çox zəif görünür və tükləri tökülür.

Qonşuları itin sahiblərinə heyvanı bu şəkildə saxlamağın yolverilməz olduğunu izah etməyə çalışsalar da, onlar bunda pis bir şey görmədiklərini bildiriblər. Sakinlər artıq polisə müraciət ediblər, onlardan bəziləri hətta iti satın almağa hazırdır.

Bunları bilirsinizmi?

* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir.
* Dünya əhalisinin demək olar ki, 50 faizi telefondan istifadə etmir.
* 1 saat qulaqlıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır.
* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.
* Betxoven son əsərini kar halda bəstələyib.
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir.
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür.
* İnsanın başında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyat qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu"dur.
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.

Tarlanın ortasında "dinozavr yumurtaları"...



Sosial şəbəkələrdə tarlaya ot yığmağa gedərkən qeyri-adi mənzərə ilə üzləşən rusiyalı ilə bağlı görüntülər yayılıb. Başqırdıstandan olan kadrlar istifadəçilər tərəfindən böyük maraqla qarşılanıb. Video tarlanın ortasına toplanmış qeyri-adi məhsulun görüntüləri ilə başlayır. "Dinozavr yumurtası" boydadır. Tarlanın ortasında. İndi biz onları nə edək?" - deyə videonun müəllifi çaşqın səslə deyir.

Müəllifin sözlərinə görə, o, sahəyə ot yığmağa gedibmiş, uzaqdan "dinozavr yumurtaları"nı görüb. Yaxınlaşanda isə bunların nəhəng şampinyon olduğunu anlayıb. Ancaq həyatında ilk dəfə belə göbələk görən kəndli çaşbaş qalıb.

Havay adalarında Kilauea vulkanı püskürməyə başlayıb



Havay ştatında Kilauea vulkanı püskürməyə başlayıb. Bu barədə ABŞ-nin Geoloji Xidməti məlumat yayıb. "Kilauea vulkanı püskürür", - deyə şirkətin saytında bildirilib. Aydınlaşdırılır ki, bundan əvvəl yüksək seysmik aktivlik dövrü müşahidə olunub. ABŞ-nin Geoloji Xidməti bölgənin aviasiya xəbərdarlığını narıncıdan qırmızıya dəyişib. Vulkanın hündürlüyü 1247 metrdir. Verilən məlumata görə, bu, Kilaueanın ilin əvvəlindən bəri üçüncü püskürməsidir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2372
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəllliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.